Xalqın qəzeti!

# Xalq qəzeti

№ 100 (30216) 14 may 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Ermənistan əgər hansısa xüsusi tələb irəli sürərsə, bilməlidir ki, bizim də bir çox tələblərimiz ola bilər. Bax bu, çox da uzaq olmayan məsafədə bizim qədim torpağımız Qərbi Zəngəzurdur.**

## Prezident İlham Əliyev Belçika Krallığına işgüzar səfərə gəlib

### Brüsseldə Avropa Komissiyasının vitse-prezidenti ilə görüş olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 13-də Belçika Krallığına işgüzar səfərə gəlib.**

Dövlətimizin başçısı Brüsseldə Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviç ilə görüşüb.

Söhbət zamanı Azərbaycan Prezidentinin Maroş Şefçoviç ilə bundan əvvəl keçirdiyi görüşləri məmnunluqla xatırlandı. Cənub Qaz Dəhlizinin uğurla icra olunması işinə Maroş Şefçoviçin verdiyi töhfə qeyd edildi və Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri kimi onun fəal rolu vurğulandı.

Maroş Şefçoviç Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirilməsi və səmərəli fəaliyyəti ilə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ötən ilin iyulunda ölkəmizə səfəri və bu səfər çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanan Anlaşma Memorandumunun əhəmiyyəti qeyd edildi. Azərbaycan qazının Avropa İttifaqı məkanına ixracının artırılması prosesinin uğurla icra olunduğu və bu xüsusda aprel ayında Sofiyada imzalanan Anlaşma Memorandumunun əhəmiyyəti vurğulandı. Azərbaycan qazının Avropa məkanında daha geniş coğrafiyanı əhatə etməsinin önəmi qeyd olundu.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında bərpaolunan enerji istehsalı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi, bu sahənin böyük perspektivlərə malik olduğu bildirildi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlığın uğurla davam etdiyi vurğulandı.

***AZƏRTAC***

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209, № 10, maddə 2002; 2019, № 5, maddələr 822, 825, № 10, maddə 1588, № 12, maddə 1929; 2020, № 7, maddə 892; 2022, № 9, maddə 1030, № 11, maddə 1256; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2051 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.4-cü bəndin birinci cümləsində "iki birinci müavini və iki" sözləri "dörd" sözü ilə əvəz edilsin;

1.2. 5.8-ci bənddən "birinci müavinlərindən və ya" sözləri çıxarılsın;

1.3. 5.9-cu bəndin birinci cümləsindən "nazirin birinci müavinlərindən," sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 may 2023-cü il**

## "Brüssel formatı": sülhün süd yolu, yoxsa növbəti imitasiya platforması



Səhifə ⇨ 3

## Paşinyan iki od arasında

Səhifə ⇨ 4



## Fransa "ən ucuz yolu" seçir...

Səhifə ⇨ 4

## Qərbi azərbaycanlılar tarixi torpaqlarına qayıdacaqlar

Səhifə ⇨ 8

## Ölkəmizin valyuta ehtiyatları xarici borcdan 10 dəfə çoxdur



Səhifə ⇨ 7



## ABŞ-da defolt barədə nə düşünürlər?

Səhifə ⇨ 9

## Bu gün Türkiyədə prezident və parlament seçkiləri keçirilir



Səhifə ⇨ 9

Səhifə ⇨ 7



## Azərbaycan kosmik ailədə mövqeyini möhkəmləndirir



## Gürcüstan seçim qarşısında: balanslı, yaxud qərbpərəst siyasət?!

Səhifə ⇨ 9

## Qəbələ şəhid oğlunu dərin ehtiramla son mənzilə yola saldı



Səhifə ⇨ 6

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, Prezident İlham Heydər oğlu Əliyev!**

"Israel Aerospace Industries" şirkətinin kollektivi adından və şəxsən öz adımdan ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan şərəf hissi duyuram.

Heydər Əliyevin Azərbaycanın və regionun inkişafına verdiyi töhfələr ölçüyəgəlməzdir. Onun dövlətçilik irsi yeni nəsil liderləri və vətəndaşları ilhamlandırmaqda davam edir. Ulu öndərin uzaqgörən liderliyi, xalqına olan davamlı sadiqliyi, eləcə də müxtəlif sahələrdəki müstəsna nailiyyətləri Azərbaycana və regiona çox əhəmiyyətli təsir göstərmişdir.

"Israel Aerospace Industries" şirkəti olaraq biz ölkələrimiz arasında möhkəm dostluğu və əməkdaşlığı yüksək qiymətləndiririk. Bu əməkdaşlığa əhəmiyyətli töhfələr verməyimizlə fəxr edir və ölkələrimizin qarşılıqlı səmərəli mənafeyi naminə tərəfdaşlığımızın daha da möhkəmləndirilməsinə sadiq qaldığımızı bildiririk. Biz ölkələrimiz üçün daha parlaq və daha təhlükəsiz gələcək qurmaq məqsədilə birlikdə işləməyə davam etməyə ümidvar olduğumuzu bildiririk.

Bu əlamətdar yubiley münasibətilə Sizə bir daha ən səmimi salamlarımızı və təbriklərimizi çatdırırıq. Biz Sizə, Azərbaycan xalqına qarşıdakı illərdə davamlı uğurlar və rifah arzulayırıq.

**Hörmətlə,**

***Boaz LEVİ,***
***İsrailin "Israel Aerospace Industries" şirkətinin prezidenti və baş icraçı direktoru***

* * *

**Hörmətli cənab Prezident!**

Zati-alinizi Gürcüstan kilsəsi adından və şəxsən öz adımdan ürəkdən salamlayıram. Sizi dünya səviyyəli tanınmış siyasət və dövlət xadimi, dahi şəxsiyyət Prezident Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Yüz il əvvəl Naxçıvanda anadan olmuş bu böyük insan tarixə mühüm töhfələr verdi və həmçinin Azərbaycan üçün rəmzə çevrildi. Qeyd edilməlidir ki, Heydər Əliyev titanik fəaliyyəti ilə həm sovet, həm də postsovet dövründə öz köklərini unutmurdu və hər zaman Vətəninin böyük pərəstişkarı idi. Öz xalqının ona olan dərin məhəbbəti onun ən böyük vəzifəni tərk edərək xalqın istəyi ilə Vətənə qayıtması və bütün gücünü ağır vəziyyətdə olan ölkəsinə sərf etməsindən qaynaqlanır. Məhz bu davranış onun yenidən irəliləməsinə səbəb oldu ki, bu da Azərbaycanın dirçəlməsi üçün həyata keçirilən növbəti olduqca əhəmiyyətli onillik dövrlə əlaqədardır. Buna görə də o, öz xalqı və beynəlxalq ictimaiyyət tərəfindən sevilən hörmətli şəxsiyyətə çevrildi.

Siz onun yolunu uğurla davam etdirirsiniz, cənab Prezident. Bunun nəticəsidir ki, Azərbaycan artıq son 20 ildir uğurları, quruculuğu və əmin-amanlığı ilə seçilir.

Cənab Heydər Əliyevin və cənab Eduard Şevardnadzenin fəaliyyətləri eyni dövrə təsadüf edir. Onların səmimi əlaqələri ölkələrimizin və xalqlarımızın dostluğuna səbəb olmuşdur. Bunun nəticəsidir ki, Tbilisidə Kür çayının sağ sahilində bir mərkəzi bölməyə Heydər Əliyevin adı verildi.

Tanrıya şükürlər olsun ki, ölkələrimiz arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələri yenə də davam edir. Ümid edirəm ki, hörmət və ədalətə əsaslanan bu münasibətlər gələcəkdə daha da dərinləşəcəkdir.

Bir daha Sizi və bütün Azərbaycan xalqını cənab Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə təbrik edir, ölkənizə xoşbəxt gələcək arzulayıram.

**Dərin hörmətlə,**

***II İLİYA,***
***Bütün Gürcüstanın Katolikos-patriarxı, Mtsxeta və Tbilisi arxiyepiskopu, Pitsunda, Suxumi və Abxaziya mitropoliti***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 154** **Bakı şəhəri, 12 may 2023-cü il**

**"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373, № 6, maddə 792, № 8, maddə 1118, № 11, maddə 1386; 2021, № 4, maddə 398, № 7, maddə 861, № 8, maddə 964, № 10, maddə 1167, № 11, maddə 1291; 2022, № 2, maddə 174, № 4, maddə 372, № 6, maddə 670, № 8, maddə 964, № 10, maddə 1215, № 12, maddə 1532; 2023, № 1, maddə 138; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 yanvar tarixli 2 nömrəli, 2023-cü il 9 mart tarixli 84 nömrəli və 27 mart tarixli 90 nömrəli qərarları) 2-ci hissəsində "mayın 1-dək" sözləri "iyulun 1-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 155** **Bakı şəhəri, 12 may 2023-cü il**

**"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il .30 noyabr tarixli 228 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1055; 2013, № 1, maddə 75; 2014, № 6, maddə 736; 2016, № 5, maddə 955; 2017, № 4, maddə 651; 2018, № 3, maddə 580, № 10, maddələr 2142, 2167; 2019, № 3, maddələr 542, 543; 2021, № 4, maddə 419, № 11, maddə 1257; 2022, № 1, maddə 58) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 2-ci hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. "İqtisadi Zonaların İnkişafı Agentliyi" publik hüquqi şəxsin nəzdində "Peşə Təhsil Mərkəzi" publik hüquqi şəxs.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bu gün Azərbaycanın beynəlxalq mövqeyi kifayət qədər güclüdür

**Bu qənaətimizin səbəbi son günlərdə dövlət başçımızın ünvanına gələn məktublardan bir neçəsinə nəzər salmağımız oldu. Məsələn, ABŞ-ın Etnik Anlaşma Fondunun təsisçisi və prezidenti Ravvin Mark Şnayer Prezident İlham Əliyevə yazır ki, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmiş, onu inkişaf yoluna çıxarmış Heydər Əliyevin xatirəsi xalqınız tərəfindən ehtiramla anılır. O, Prezidentliyi dövründə , mədəniyyətə və təhsilə, o cümlədən beynəlxalq əməkdaşlığın təşviqinə böyük önəm vermişdir. İsrail ilə Azərbaycan arasında güclü münasibətlərin əsasını Sizin atanız qoymuşdur. Bu il Siz onun müdrik siyasətini davam etdirərək Təl-Əvivdə səfirlik açdınız.**



Bu qəbildən olan fikir və arqumentlərlə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevdən, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilidən, Qırğız Respublikasının Prezidenti Sadır Japarovdan, 2006-2009-cu illərdə İsrail Dövlətinin Baş naziri olmuş Ehud Olmertdən, ABŞ-ın "Vicdana çağırış" Fondunun prezidenti Ravvin Artur Şnayerdən və digər siyasətçilərdən gələn məktublarda da rastlaşırıq. Yəni dövlət başçımızın beynəlxalq mövqeyimizin kifayət qədər güclü olduğu barədə dediyi fikirlər günün reallıqlarının dilə gətirilməsidir.

**(ardı 4-cü səhifədə)**

# Hərbi attaşelər Ermənistanın təxribatı barədə məlumatlandırılıb

**Dünən Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün brifinq keçirilib.**



Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov mayın 10-dan başlayaraq Ermənistan silahlı qüvvələri bölmələrinin Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törətməsi barədə xarici ölkələrin hərbi nümayəndələrinə ətraflı məlumat verib.

Bildirilib ki, mayın 11-i və 12-də qarşı tərəf təxribatlarını genişləndirərək vəziyyəti daha da gərginləşdirmək məqsədilə iriçaplı silahlar, minaatanlar, daha sonra isə D-30 toplarından istifadə etməklə mövqelərimizi intensiv atəşə tutub. Qeyd edilib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki bir neçə mövqeyinə qarşı müxtəlif istiqamətlərdən zərbə PUA-ları da tətbiq edilib.

Xarici nümayəndələrə Ermənistan silahlı qüvvələrinin təxribatlarını əks etdirən videogörüntülər təqdim olunub.

Nümayəndələri maraqlandıran suallar cavablandırıldıqdan sonra onlara PUA-ların qalıqları əyani nümayiş etdirilib.

# O, elə bir zirvə idi ki...





**Türkiyənin Nyu-Yorkdakı baş konsulluğunun evsahibliyi ilə Türk Evində Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş mərasim düzənlənib.**

Yubiley gecəsi Azərbaycanın ABŞ-dakı səfirliyinin, Azərbaycan və Türkiyənin BMT yanında daimi nümayəndəliklərinin birgə təşkilatçılığı və Türkiyənin Nyu-Yorkdakı baş Konsulluğunun evsahibliyi ilə Türk Evində baş tutub. Tədbirdə Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim, BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev, Türkiyənin BMT yanındakı daimi nümayəndəsi Sedat Önal, həmçinin Nyu-York şəhərində yerləşən diplomatik nümayəndəliklərin əməkdaşları, elmi-tədqiqat mərkəzlərinin nümayəndələri və iş adamları, Azərbaycan və türk diasporunun nümayəndələri iştirak ediblər.

Çıxışında ulu öndər Heydər Əliyevin bəşər tarixinin yetişdiriyi nadir şəxsiyyətlərdən biri olduğunu deyən səfir Xəzər İbrahim onu da bildirib ki, tarixin ən çətin dövrlərində müdrik zəkası, demokratik dövlət quruculuğu prinsiplərinə sadiq uzaqgörən siyasəti ilə Heydər Əliyev Azərbaycanı sağlam təməllər üzərində yenidən inşa edib: "O, ömrü boyu Azərbaycanın azadlığı, istiqlalı, müstəqilliyi üçün əzmlə, fədakarlıqla mübarizə aparıb".

Gecədə çıxış edən Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev müasir Azərbaycanın qurucusu kimi Heydər Əliyevin daxili və xarici siyasəti, uzaqgörənliyi nəticəsində ölkəmizin rifahının təmin edilməsi, Azərbaycanın regionda və dünyada nüfuzunun artmasında göstərdiyi müstəsna xidmətlərindən danışıb. Ulu öndərlə bağlı xatirələrini bölüşən Y.Əliyev onun ABŞ və BMT ilə əlaqələrinin qurulması və inkişafındakı rolundan, bu gün Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən də bəhs edib. Türkiyənin BMT yanındakı daimi nümayəndəsi Sedat Önal isə Heydər Əliyevin sadəcə Azərbaycanda deyil, türk dünyasında əvəzsiz imzasının olduğunu bildirib. O, uca zirvə hesab etdiyi ulu öndərin Türkiyə–Azərbaycan qardaşlığı yolunda möhtəşəm fəaliyyətindən danışıb.

Yubiley mərasimində Amerika - Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəri və Dünya Axıska Türkləri Birliyinin nümayəndəsi Şöhrət Temirov da çıxış ediblər. Tədbirin sonunda "Heydər Əliyev" adına təqaüd Pensilvaniya Universitetinin tələbəsi Meyson Kellerə təqdim edilib. Türk Evində ulu öndərin ABŞ-a rəsmi və işgüzar səfərlərinə aid foto-sərgi təşkil olunub. Gecədə Azərbaycan XİN tərəfindən hazırlanmış, Heydər Əliyevin xarici siyasət fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

***"Xalq qəzeti"***

# "Brüssel formatı": sülhün süd yolu, yoxsa növbəti imitasiya platforması

## *Azərbaycan və Ermənistan liderlərinin bugünkü görüşündən nə gözləmək olar?*



**Bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Brüsseldə üz-üzə gələcək. Bakı vaxtı ilə günortadan sonraya planlaşdırılmış və Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə gerçəkləşəcək görüşün proqramı da məlumdur. Belə ki, üçtərəfli görüşdən əvvəl Ş.Mişel N.Paşinyanla, daha sonra isə Prezident İlham Əliyevlə ikitərəfli formata üstünlük verəcək.**

Qeyd edək ki, bugünkü görüş 44 günlük müharibədən sonra "Brüssel formatı" çərçivəsində iki ölkə liderlərinin Cənubi Qafqazdakı münaqişəli durumun nizamlanması baxımından əhəmiyyət daşıyan sayca dördüncü təmasıdır. Mövcud formatdakı ilk görüş 2021-ci il dekabrında, ikincisi 2022-ci ilin aprelində, üçüncüsü isə həmin ilin oktyabrında keçirilmişdi.

İlk növbədə ondan başlayaq ki, ötən ilin oktyabrında Praqada keçirilmiş axırıncı təmasdan sonra "Brüssel formatı"nın sıradan çıxdığına dair təsəvvür formalaşmışdı. Nəzərə alaq ki, bu formatda 2022-ci ilin dekabrına planlaşdırılmış növbəti görüş gerçəkləşməmişdi. Buna səbəb Fransa prezidenti Emmanuel Makronun Ermənistana aşkar tərəfkeşlik mövqeyində çıxış etməsi, Azərbaycanı işğalçılıqda təqsirləndirilməsi olmuşdu.

Beləcə, Bakı ilə Paris arasında gərginlik artmış, Avropanın sülh missiyası həmin vaxtadək vasitəçilik edən Ş.Mişelin patronajlığından çıxaraq, qeyri-rəsmi şəkildə Fransa egidası altına düşmüşdü. Yəni, Aİ Şurasının rəhbəri geri çəkilmək məcburiyyətində qalmışdı. Ardınca qurumun mülki missiyası Azərbaycan–Ermənistan şərti dövlət sərhədinin Ermənistan tərəfinə gətirilmişdi.

Necə deyərlər, ən son bombanı isə Ermənistanın baş naziri Nikol Paşinyan "partlatmışdı". Paşinyan 2022-ci ilin dekabrında, yəni, Azərbaycan lideri ilə planlaşdırılmış növbəti görüşə az müddət qalmış bildirmişdi ki, Brüsseldə danışıqlar masasına yalnız E.Makronla birlikdə oturmağa razıdır. Başqa sözlə desək, Nikol Praqada olduğu kimi, Brüsseldə də Makronu yanında görmək istəmişdi. Lakin bu şərt Azərbaycan tərəfindən keçərsiz sayılmış, nəticə etibarilə Şarl Mişelin vasitəçilik missiyası uğursuzluqla üzləşmişdi. Bu, eyni zamanda, Azərbaycan–Ermənistan tənzimləməsinin Qərb cinahının iflası idi ki, mövcud gedişat prosesdə durğunluq yaratmışdı. Rusiya isə vəziyyətdən istifadə etmək istəməmişdi. Kremldə düşünmüşdülər ki, Qərb nizamlanmasında real sülh variantının olmaması Moskvanın işinə yarayır. Axı həm də başı Ukrayna ilə müharibəyə çox qarışmış Rusiya, lap əvvəldən sülh müqaviləsininin imzalanmasının uzanmasında maraqlı görünür. Öz arqumentləri var, ancaq onlar Azərbaycan üçün keçərsizdir…

Söhbət Bakı ilə İrəvan arasındakı münasibətlərin tənzimlənməsinin Qərb seqmentinin aktivləşməsindən gedirsə, 2023-cü ilin fevralında Azərbaycan və Ermənistan liderlərinin Münxendə ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin vasitəçiliyi ilə keçirilmiş görüşünü də yada salmalıyıq. Azərbaycanlı fəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin Laçın–Xankəndi yolunda düzənlədikləri aksiyanın formalaşdırdığı gərginlik fonunda baş tutmuş görüşdə heç bir nəticə əldə olunmamışdı. Üstəlik, həmin konfransın gedişində ictiamiyyət üçün açıq olan panel iclasda da tərəflərin fikir və düşüncələrindəki ziddiyyətlər aşkar şəkildə görünmüşdü.

***

Bəli, hazırda Bakı–İrəvan nizamlanmasının Qərb cinahı aktivdir. Hərçənd, bir neçə gün əvvələdək bu aktivlik ABŞ-ın təkbaşına vasitəçiliyi təsiri bağışlamışdı. Söhbət Azərbaycanın və Ermənistanın mayın əvvəllərində gerçəkləşmiş və dörd gün davam etmiş Vaşinqton danışıqlarından gedir. Əlbəttə, bu danışıqların, ümumən, faydalı olduğu bildirilsə də, əslində, Azərbaycan tərəfindən, xüsusən də Ermənistandan gələn reaksiyalar Birləşmiş Ştatların nikbin ovqatına adekvat kimi görünmədi. Yekunda belə rəy formalaşdı ki, Vaşinqton prosesi də sülhü gətirməyəcək.

Lakin elə bu an məlum oldu ki, Avropa vasitəçiliyindən ayrı kimi görünən Vaşinqtonun sülh egidası kollektiv Qərb təşəbbüsünün tərkib hissəsidir. Ola bilər, belə təəssüratın yaranması Birləşmiş Ştatların öz uğursuzluğunu, yaxud lazımi qədər nəticə əldə edə bilməməsini görməsindən və Qərb nizamlanma xəttinin tərkib hissəsinə dönüş niyyətindən irəli gəlir. Hər bir halda, Rusiyanın gözlənilən aktivləşməsinə qarşı birləşmə labüddür. Hərçənd, hazırda Moskvanın hansısa gerçək təşəbbüs irəli sürəcəyi də real görünmür.

Əlqərəz, ABŞ Dövlət Departamentinin mətbuat xidməti rəhbərinin müavini Vedant Patelin bir neçə gün öncəki açıqlamasından gəlinən qənaət Brüssel görüşünün Vaşinqton prosesindən qaynaqlandığını söyləməyə əsas versə də, Aİ-dən bildirilir ki, Belçikanın paytaxtındakı təmas Ş.Mişelin Avropa İttifaqının Cənubi Qafqazda sabitliyi və iki ölkə arasında normallaşmanı təşviq etmək səylərinin inkişafı üçündür. Yəni, ortada inkişaf naminə Ermənistan və Azərbaycan liderləri ilə sıx əlaqə saxlanılması məntiqi var. Deməli, Aİ əvvəlki kimi hesab edir ki, Cənubi Qafqazda sabitlik və təhlükəsizlik mühiti onun bölgəki söz sahibliyi baxımından vacibdir. Yaxşı olar ki, bu vaciblik Ermənistana gerçək təzyiq motivlərinə köklənsin. Çünki reallığı qəbul etməyən İrəvandır.

Yeri gəlmişkən, o da görünür ki, Aİ Cənubi Qafqazdakı durumu nizamlamaq üçün yalnız bir görüşlə kifayətlənmək istəmir, iki ölkə rəhbərlərinin digər təmaslarının olacağını da açıqlayır. Bunlardan biri 1 iyun 2023-cü ildə Kişinyovda keçiriləcək Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Fransa Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə keçiriləcək. Digər tərəfdən, Ş.Mişel 2023-cü ilin oktyabrında Qranadada planlaşdırılan növbəti EPC sammiti çərçivəsində Ermənistan, Azərbaycan, Fransa və Almaniya liderlərini ikinci dəfə görüşməyə dəvət etmək niyyətində olduğunu açıqlayıb.

Göründüyü kimi, kollektiv Qərbin Avropa seqmenti, belə demək mümkünsə, sülh fəallığında ardıcıllıq da göstərməkdədir. Bu, gerçək fəallıqdırmı, səmimi şəkildə sülh istəyidirmi, yoxsa Rusiyanın mövcud istiqamətdə aktivləşməsinin qarşısını almaq, yaxud Ermənistan üçün vaxt udmaq cəhdidir? Gedişatı zaman göstərəcək.

***

Bəs, bugünkü görüşdən hansı gözləntilər var? Ş.Mişelin vasitəçiliyinin iflasını doğuran məqamları qeyd etdik. Suala cavab verməzdən öncə isə bu vasitəçiliyin indiyədək gəldiyi ən böyük nəticəni vurğulayaq. Söhbət ötən ilin Praqa sammitindən gedir. O sammitdən ki, orada tərəflər bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını vurğulamışdılar. Əlbəttə, sonra baş verənlər Ermənistanın sülhdən uzaq məntiqə kökləndiyini sübuta yetirmişdi.

Hazırda demək olmaz ki, Ermənistan sülhə yaxındır. Ölkənin hərbi birləşmələrinin bir neçə gün öncə şərti sərhəddə törətdikləri qanlı təxribat da bunun təsdiqidir. Ancaq dünya mediası Avropa nizamlanmasına önəm verməkdədir. Məsələn, nüfuzlu "Financial Times" qəzeti görüşə hazırlıqla tanış olan üç rəsmiyə istinadən yazıb ki, danışıqlarda Azərbaycan tərəfindən Laçın yolunda sərhəd-keçid məntəqəsinin yaradılması məsələsi də daxil olmaqla, sərhədlərin demarkasiyası, əsirlərin mübadiləsi və digər mövzular müzakirə olunacaq.

Nəticələrə gəlincə, bu barədə ən səs-küylü fikir Ermənistan mediasında irəli sürülüb. Ölkənin "İravunk" nəşri "Brüssel formatı"na və Qərb nizamlamasına diqqət yetirərək yazıb ki, Azərbaycan və Ermənistan iyunun 1-də Kişinyovda yekun sənədi imzalaya bilər. Nəşrin iddiasına görə, Avropa Siyasi Birliyinin Kişinyovda keçiriləcək sammiti çərçivəsində baş tutacaq görüşün sənədin imzlanması ilə tarixə keçməsi mümkündür: "Lakin bundan əvvəl 14 mayda Brüsseldə keçiriləcək görüş həlledici olacaq. Böyük ehtimalla Paşinyanla Əliyev yekun sənəddən öncə Brüsseldə detalları müzakirə edib, razılaşdıracaqlar".

Bəli, Paşinyan ölkəsindəki revanşist və şovinist dairələrdən qorxur. Bu, indiyədək özünü çox göstərib. Dəfələrlə Nikolun qeyri-ciddi hərəkətləri nəzərə çarpıb. "İravunk" da məsələyə toxunub. Nəşrdə qeyd edilib ki, erməni baş nazirin qorxuları ilk növbədə diasporla bağlıdır. "İstər Paşinyan, istərsə diasporla iş üzrə baş komissar Zareh Sinanyan səviyyəsində baş tutan son təmaslar göstərdi ki, bundan sonra diaspor susmayacaq və etiraz edəcək".

Nəzərə alaq ki, erməni diasporunun ən böyük məkanı elə Avropadır. Bu mənada Aİ rəhbərliyi qurumun sülh təşəbbüsü çərçivəsində həm Ermənistana təzyiq etməli, həm də "köhnə qitə"dəki erməni diaspor və lobbi təşkilatların təzyiqinə qarşı durmaq mexanizmi üzərində düşünməlidir.

Sonda onu da vurğulayaq ki, Azərbaycan və Ermənistan liderlərinin bir araya gəlmələri sülh gündəliyinin aktuallığının saxlanılması baxımından vacibdir. Eyni zamanda, keçmişin təcrübəsində bu təmasların müəyyən pozitiv nəticələr doğurduğu amili də var. Həmin nəticələr məntiqi sonluq gətirəcəkmi, bunu isə zaman göstərəcəkdir.

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*

**Züriyə QARAYEVA,**
**politoloq**



Bugünkü görüşü ənənəvi görüşlərin davamı hesab edirəm. Brüsseldə ciddi irəliləyişin olacağını düşünməsəm də, həmişəki kimi müəyyən detalların müzakirəsi, tərəflərin mövqeyini açıq şəkildə bildirməsi və əlbəttə ki, sonradan müzakirələrin yerinə yetirilməməsi baxımından beynəlxalq çərçivədə Bakının əlinin güclənəcəyini təxmin edirəm.

Paşinyan görüşlərdə ərazi bütövlüyünü tanıyır, lakin sonra tamamilə əks mövqe sərgiləyir, ərazi iddialarına baş vurur, habelə, ölkəsi sərhəddə təxribat törədir. Ancaq unutmaq olmaz ki, Qərb suverenlik məsələsində ölkəmizi dəstəkləyir. Qarabağ məsələsini gündəmə gətirmir, bunun bizim daxili işimiz olduğunu qəbul edir.

Uzlaşmayan maraqlarımız həm də sərhəd və kommunikasiya ilə bağlıdır. Mövcud istiqamətdə, ilk növbədə, sərhədin konkret müəyyənləşməsi şərtdir. Bunun icrası labüddür. Delimitasiyanın Rusiya platformasında həll olunacağını ehtimal etmək olar. Hesab edirəm ki, bu, Qərb müstəvisində həll olunsa belə, Moskva prosesi pozmağa cəhd göstərəcək. İndiki halda, yəni rus sülhməramlıları ərazimizdə olduğu müddətdə bu cür fundamental məsələnin həllinə Brüssel formatında nail olmaq çətin və təhlükəli görünür.

Ümumən, delimitasiya məsələsinin Rusiya ilə razılaşdırılması ehtimal olunandır. Əlbəttə ki, şimal qonşumuzun maraqları bizim maraq və mənafelərimizlə toqquşur. Ancaq bundan öncə də toqquşurdu. Ölkəmiz Laçın yolu üzərindəki sərhəddə nəzarət-buraxılış məntəqəsi quraşdırılarkən də bu tendensiya aktual idi. Yəni, indi də maraqlar uzlaşmaya bilər. Bütün bunların fonunda düşünmək olar ki, problemlərin həlli diplomatiyanın daha da gücləndirilməsindən və Moskvanı maraq uzlaşmasına vadar etməkdən keçir. Hesab edirəm ki, Türkiyədəki seçkilərin nəticələri də bir gün sonra bizə daha güclü ehtimallar irəli sürməyimizə təkan verəcək.

Ermənistan 29.8 min kv km-lik ərazi məsələsini qüvvədə tutmaqla, sərhəd bölgüsündə haqlı iddialarımızın icrasını ləngidir. Azərbaycanın tələbləri isə Rusiyadakı xəritələrdədi. Bununla bağlı Qərbin nə isə edə biləcək resursunun mövcud olmadığına dair təəssürat var. Delimitasiya olmadan isə sülh müqaviləsi imzalana bilməz. Çünki, protokol qaydalarına görə, sülh müqaviləsində ərazi bütövlüyü tanınmalı və sərhədlər barədə razılığa gəlinməlidir. Bu məntiq də bizə sülh müqaviləsinin Qərbdə imzalanmayacağını söyləməyə əsas verməkdədir. Sadəcə müəyyən detallarının müzakirəsi və həmin istiqamətdə kiçik praktiki irəliləyişlərə təkan verilməsindən söhbət gedə bilər.

# Brüsseldə "iks" saatı



**Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının Brüssel raundunda Vaşinqtonda əldə edilmiş razılaşmanın nəticəsi kimi müəyyən irəliləyişin olması sual altındadır.**

Hər dəfə sülh gündəliyində müsbət təmayüllər müşahidə edildə, qarşılıqlı münasibətlərin yumşalmasına ümidlər göyərəndə İrəvan bu prosesi ləngitməyə yönəlik təxribatlara baş vurur. Hayastan rəhbərliyində bir növ adət halını almış bu pozuculuq fəaliyyətinin kənardan körükləndirildiyi, rəsmi İrəvanın sülhə mane olmağa təhrik edildiyi göz önündədir.

Bu gün Belçikanın paytaxtı Brüssel şəhərində keçiriləcək görüşün proqramını açıqlayan Avropa İttifaqının (Aİ) ofisi Azərbaycan və Ermənistan liderlərinin danışıqlar aparacağını təsdiqləyib. Məlumatda üçtərəfli danışıqlardan əvvəl missiyanın təşəbbüskarı, Aİ Şurasının prezidenti Şarl Mişelin baş nazir Nikol Paşinyanla, daha sonra Prezident İlham Əliyevlə ikitərəfli görüş keçirəcəyi də bildirilir. Bəzi müstəqil siyasi analitiklərin mövzu ilə bağlı şərhlərində konkret bu sual dominantlıq edir: Ermənistan rəhbərliyi Brüsseldə Qarabağ bölgəsi də daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyacaqmı?

Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov hesab edir ki, Paşinyanın bunu Brüsseldə dilə gətirib–gətirməyəcəyi Bakı üçün əhəmiyyət daşımır: "Hayastanın baş naziri bunu hələ Praqa görüşündə söyləyib. Bu fikir həmin görüşün yekunu kimi Şarl Mişelin mediaya verdiyi açıqlamada da öz təsdiqini tapıb. Üstəlik, Paşinyan bunu öz parlamentlərində də etiraf edib. Amma onu da bilirik ki, o, bu gün dediyini sabah başqa qəlibə salır. Nəhayət, bu məsələ sülh müqaviləsində öz əksini tapmalı, parlamentdə paraflanmalı və qanuni qüvvəyə minməlidir. Bu, Ermənistanın öhdəliyidir. Yəni, bizim üçün Paşinyanın sözü, etirafı kifayət eləmir. İndi o, Brüsseldə, misal üçün, deyə bilər ki, Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıyıram, amma Qarabağın erməni sakinlərinin öz müqəddaratını təyinetmə hüququ var. Brüssel görüşündə hansısa sənədin imzalanacağını düşünmürəm. Amma, ənənəvi olaraq, Şarl Mişelin görüşün nəticəsi kimi müəyyən ümumiləşdirici açıqlama verəcəyi və həmin mətndə qarşılıqlı ərazi bütövlüyü məsələsinin öz əksini tapacağı gözləniləndir".

Böyük ehtimalla Vaşinqtonun irəli sürdüyü sülh sazişi layihəsində Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanındığı və Qarabağın erməni icması üçün heç bir xüsusi statusun nəzərdə tutulmadığı qeyd olunub.

Ordusunda "beşinci kolon"un olduğunu etiraf edən baş nazir, əlbəttə ki, belə taleyüklü qərarları təkbaşına verməyə çəkinir. Hayastan hakimiyyətinin həm sülh sazişi, həm də Qarabağla bağlı utopik mülahizələr irəli sürməsi, yersiz iddialar səsləndirməsi məhz "beşinci kolon"un yaratdığı qorxu amili ilə bağlıdır. Aİ-nin timsalında Qərbin xoşməramlı və ardıcıl sülhyaratma təşəbbüslərinə İrəvanın ikibaşlı yanaşmaları da buradan qaynaqlanır. Cənubi Qafqazı özlərinin "arxa bağçası" sayan bəzi güc mərkəzlərindən fərqli olaraq, Türkiyə və ABŞ kimi Avropa İttifaqı da bu gün bölgədə uzunmüddətli möhkəm sülhün və əmin-amanlığın, qarşılıqlı faydalı əməkdaşlığın tərəfdarıdırlar. Bundan daha çox udan tərəfin isə Ermənistanın olacağı şəksizdir.

Belçika paytaxtında bazar gününün ikinci yarısının "iks" saatında Paşinyan son vaxtlar vərdiş halını almış "ittihamnamələrini" səsləndirə bilər. Misal üçün, Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qurması, guya, 10 noyabr 2020-ci il tarixli Bəyanata ziddir; şərti sərhəddə vəziyyəti məhz Azərbaycan tərəfi gərginləşdirir, bununla da delimitasiya prosesinə mane olur, yaxud, Qarabağ ermənilərinin müqəddaratı beynəlxalq "normalara" uyğun həll edilməlidir. Onun bu xarakterli dezinformasiya və ağ yalanlarının siyahısına Brüsseldə yenilərini də əlavə edəcəyi istisna deyil. Axı beş gün sonra onu Moskvada keçiriləcəyi ehtimal olunan toplantıdan öncə indiki görüşlə bağlı ciddi sorğu-sual gözləyir. Buna görə, proqnoz nə qədər pessimist səslənsə də, Hayastanın baş nazirinin Avropanın göbəyində "mən sülh sazişinə imza atıram" kimi bəyanat verməsi onun öz qətlinə fərmanı imzalaması olardı. Heç qibtəedilesi vəziyyət deyil...

**İmran BƏDİRXANLI,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

Brüssel görüşü öncəsi Ermənistanın şərti sərhəddə törətdiyi təxribatların hədəfləri barədə onu demək olar ki, məqsəd 14 may sülh danışıqlarını pozmaqdır. Artıq iki il yarımdır ki, üçtərəfli Bəyanatın bəndlərinin razılaşdırılması üzərində işlər davam edir. Bu danışıqlarda əldə edilən yeganə siyasi razılaşma tərəflərin ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanıması barədədir. Həmin razılaşma keçən ilin oktyabrında məhz Brüsseldə əldə olunub. Moskvanın Ermənistana geniş təsir imkanlarına, Qarabağda Rusiyanın sülhyaratma hərbi kontingentinin yerləşməsinə baxmayaraq, bu qərar Avropa İttifaqının vasitəçiliyi ilə qəbul edildi. Amma 14 may danışıqlarından ciddi bir razılaşmanı gözləmək əbəsdir, çünki, paralel aparılan sülh dialoqunda Aİ də özünün mülki, indi artıq hərbi missiyasını bölgəyə yerləşdirmək üçün müəyyən addımlar atır. İrəvan da buna qarşılıq olaraq konkret addımlara getməlidir. Bu isə onun Aİ-yə ümidlərinin gerçəkləşməsinə müəyyən əsas yaratmalıdır. Axı Aİ Ermənistana hərbi-siyasi və maliyyə dəstəyini təmənnasız vermir. Düşünürük ki, Brüssel danışıqlarında sərhədin delimitasiya və demarkasiya məsələsində müəyən irəliləyiş ola bilər. Ümumilikdə, İrəvanın şərti sərhəddə baş verən son hadisələrdə Bakını təqsirkar çıxarmağa çalışmasının əlavə arqument kimi Aİ-nin əlində istifadəyə yararlı "təzyiq alətinə" çevrilməsi istisna edilmir.

Əgər İrəvan yenə də gözlə görünən addımlar atmasa, Bakı üçün Brüssel görüşünün heç bir əhəmiyyəti olmayacaq.

# FHN əhaliyə müraciət etdi

**Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi səlahiyyətlərinə uyğun ölkədə nüvə və radioloji fəaliyyət sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir. Yoxlamalar zamanı bəzi tibb müəssisələrində rentgen müayinələrinin qeyri-qanuni həyata keçirildiyi aşkarlanıb.**



Bu isə ciddi pozuntu olmaqla, insan həyatı və sağlamlığı üçün təhlükə mənbəyidir. Agentlik tərəfindən pozuntular aşkar olunmuş belə müəssisələr barəsində qanunvericiliyə uyğun sərt tədbirlərin görülməsi təmin edilir.

FHN əhaliyə müraciət edərək rentgen müayinələri üçün yalnız "xüsusi icazə"si olan tibb müəssisələrinə müraciət edilməsini tövsiyə edir. Onların siyahısı Nazirliyin rəsmi internetində yerləşdirilib: **(https://www.fhn.gov.az/index.php?aze/news/xeber/1/1/1/1000)**

# Bu gün Azərbaycanın beynəlxalq mövqeyi kifayət qədər güclüdür

(əvvəli 2-ci səhifədə)

*Beynəlxalq müstəvidə bizə lazım olan bütün sənədləri, qətnamələri qəbul etdirə bilmişik və bu, İkinci Qarabağ müharibəsinin uğurla aparılması üçün də öz rolunu oynamışdır. Çünki biz həqiqəti sübut etmişik. Biz yalnız həqiqəti sübut etməyə çalışırdıq və ona nail olduq ki, bu, bizim torpağımızdır… Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işimizlə bu hüquqi və siyasi bazanı yarada bilmişik.*

**Azərbaycan Prezidenti İlham Əliyevin xalıqa müraciətindən**
**Şuşa, 10 may 2023-cü il**

Cənab Prezident mayın 10-dakı müraciətində xatırlatdı ki, Azərbaycan ulu öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz: “Bu gün beynəlxalq təşkilatlarda Azərbaycanın hörməti artır. Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına 4 ilə yaxın biz rəhbərlik edirik və ümumi rəyə görə, ləyaqətlə rəhbərlik edirik. Əgər belə olmasaydı, bizim sədrlik müddətimiz 120 ölkənin yekdil səsi ilə daha bir il uzadılmazdı. Bu gün Avropa üçün Azərbaycan çox önəmli ölkəyə çevrilib. Biz Avropa İttifaqına üzv ölkələrin üçdəbiri – doqquz ölkə ilə strateji tərəfdaşıq”.



Dövlət başçımız bu il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda demişdi ki, bu il artıq Rumıniyaya Azərbaycan qazının nəqli başlayıb: “Yunanıstan, İtaliya və Bolqarıstana qaz nəql edilir, Albaniyada qazpaylayıcı şəbəkənin yaradılması layihəsinə sərmayə qoyuluşuna dair danışıqlar aparılır. Çünki Albaniya tranzit ölkəsi olmasına baxmayaraq, qazpaylayıcı şəbəkəyə malik deyil. Biz həmin şəbəkənin yaradılmasına böyük sərmayə yatırmağı planlaşdırırıq. Mən bir neçə gün əvvəl Sofiyada idim və “Həmrəylik halqası” layihəsinin başlanılması tədbirində iştirak etdim. Artıq Slovakiya da bu prosesə qoşulur. Hazırda biz 6 ölkəyə qaz ixrac ediriksə, işlər qrafik üzrə getsə və forsmajor halları olmasa, ölkələrin sayı bir ilə 10 ola bilər”.

Bu, nə deməkdir? O deməkdir ki, Azərbaycanın beynəlxalq aləmdəki mövqeləri bu gün daha möhkəmdir. Bunu təkcə uğurlu xarici siyasətimiz və ya düşünülmüş diplomatiyamız nəticəsində qazanmamışıq. Bu uğurların əsas təməllərindən biri də 44 günlük İkinci Qarabağ müharibəsinin məlum nəticələridir. O nəticələr ki, işğalçı ölkə məğlub olduğunu rəsmi şəkildə təsdiq eləmişdi.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin İstanbulda keçirilən “Texnofest-2023” festivalının açılış mərasimində iştirakı haqqında danışan Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karauz Azərbaycan mətbuatına verdiyi müsahibədə demişdi ki, İlham Əliyevin çıxışı zamanı region və bütün dünya ölkələrinə “bir millət, iki dövlət və tək dəmir yumruq” mesajı tədbirin ən önəmli məqamıdır. “Dövlət başçılarımız birlikdə əllərini havaya qaldıraraq, bu dəmir yumruğu dosta da, düşmənə də göstərdilər... 85 milyon Türkiyə və 10 milyon Azərbaycan xalqı olaraq üzərimizə düşən vəzifə bu qardaşlığı daha da möhkəmləndirmək və ortaya qoyulan hədəfləri daha da irəliyə aparmaqdır...Yaşadığımız hadisələr növbəti dəfə Türkiyənin hərbi və siyasi gücünün həm də Türk dünyası üçün həyati əhəmiyyət daşıdığını, Cənubi Qafqazda təhlükəsizliyin qarantı olduğunu göstərir. Şuşa Bəyannaməsi də yalnız ölkələrimiz üçün deyil, bütün digər qardaş dövlətlər üçün də yol göstəricisidir. Fikrimcə, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Qələbəsini həzm edə bilməyənlər də bütün sadaladıqlarımızdan yanlış addım atacaqları təqdirdə nə ilə qarşılaşacaqlarını anlamalı, öz paylarını götürməlidirlər”.

Bəli, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi gündən-günə möhkəmlənir. Bunu Avropa İttifaqına üzv olan ölkələrin üçdəbiri ilə qurduğumuz strateji əməkdaşlıq, NATO-da ən güclü ordulardan birinə malik olan Türkiyə ilə sıx münasibətlərimiz, BMT tribunasından səsləndirdiyimiz təkliflər, Qoşulmama Hərəkatına rəhbərliyimiz dövründə nümayiş etdirdiyimiz qətiyyətli mövqe, Türk Dövlətləri Təşkilatındakı fəaliyyətimiz, İslam Əməkdaşlı Təşkilatına fəaliyyətinə verdiyimiz töhfələr və digər bu kimi çoxsaylı arqumentlərimiz təmin edir.

Biz inanırıq ki, qarşıdakı illərdə bu istiqamətdə daha qətiyyətli addımlar atacaq və daha böyük uğurlara nail olacağıq.

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”**

**Otuz il ərzində Cənubi Qafqaz regionunu “barıt çəlləyinə” çevirmiş Qarabağ münaqişəsi iki il yarımdır həll olunub. Regionda yeni reallıqlar yaranıb. Amma bir sıra ölkələr, ilk növbədə, ermənipərəst Fransa hökuməti Azərbaycanın beynəlxalq qanunlar çərçivəsində ərazi bütövlüyünü bərpa etməsindən narahatdır. Ermənilərin düşdüyü rəzil vəziyyətdən istifadə edən rəsmi Paris Azərbaycana qarşı hətta, proksi müharibə aparmağa başlayıb. NATO-nun və Avropa İttifaqının üzvü olan bir ölkənin belə destruktiv addım atması həm demokratiya, həm də “böyük ölkə” adına böyük biabırçılıqdır.**

# Fransa “ən ucuz yolu” seçir...



İngilis-rus lüğətinə görə, proksi müharibə üçüncü tərəf vasitəsilə iki güc arasında aparılan müharibəni ifadə edən hərbi termindir. Proksi müharibənin klassik tərifi 1964-cü ildə amerikalı politoloq Karl Doyç tərəfindən irəli sürülmüşdü. ABŞ-ın 34-cü prezidenti Duayt Eyzenhauer isə çıxışlarının birində proksi müharibələri “başqasının əlləri ilə aparılan müharibələr” adlandırmışdı. D. Eyzenhauer belə münaqişələri “milli məqsədlərə çatmağın ən ucuz yolu” və “ən ucuz sığorta” kimi qiymətləndirmişdi. Bu cür müharibələrin birbaşa hərbi müdaxilə ilə müqayisədə maliyyə xərclərini və siyasi riskləri azaltdığı nəzərdə tutulurdu.

Milli Təhlükəsizlik Araşdırmaları Mərkəzinin məqaləsində proksi müharibələri “üçüncü tərəfin dolayısı ilə öz maraqları naminə iştirak etdiyi, münaqişənin iki aktorundan birinə hərbi, təşkilati, resurs, siyasi və ya digər dəstəyin təmini kimi müəyyən edilir”. Həmin məqalədə bildirilir ki, proksi müharibələr uzun tarixə malikdir, lakin onlar ən çox nüvə silahının yaranması ilə əlaqədar geniş yayılıb. Yəni, nüvə gücləri bu metoda əl atmaqla öz aralarında birbaşa hərbi toqquşmalardan qaçmağa çalışırlar. Xatırladaq ki, proksi müharibələr “soyuq müharibə” dövründə standart münaqişə forması idi. Koreya(1950-1953), Vyetnam(1957-1975) və Əfqanıstan müharibələrini (1979-1989) buna nümunə göstərmək olar. Qeyd etmək lazımdır ki, proksi müharibənin məqsədi geosiyasi düşməni zəiflətmək, ona xeyli daxili problem yaratmaq, beynəlxalq səviyyədə nüfuzunu mümkün qədər aşağı salmaqdır.

Göründüyü kimi, proksi müharibələr böyük dövlətlərin tez-tez əl atdıqları sevimli metoddur. Almaniya Kansleri Angela Merkelin təqaüdə çıxmasından sonra özünü Avropanın Napoleonu kimi aparmağa çalışan Fransa Prezidenti Emmanuel Makron da ölkəsinin heç vaxt güclü mövqeyi olmadığı Cənubi Qafqaz regionunda möhkəmlənmək istəyir. Son olaraq da Parisin Ermənistana hərbi attaşe təyin etməsi Fransanın militarist siyasətindən xəbər verir. Son günlər mətbuat orqanlarında Fransanın Ermənistanla hərbi əməkdaşlığını gücləndirmək istəməsi və hətta ermənilərə öldürücü silahlar verilməsi barədə məlumatların yayılması Yelisey sarayının bəd niyyətini təsdiqləyir.

Artıq məlum olur ki, fransızlar Cənubi Qafqaz regionuna soxulmaq üçün proksi müharibəyə belə əl atırlar. Yəni, Duayt Eyzenhauerin dediyi kimi, milli məqsədlərə çatmağın ən ucuz yolunu seçməyə üstünlük verirlər. Fransızların Azərbaycana qarşı belə müharibə apardığını təsdiqləyən videogörüntülər də var. Əldə etdiyimiz məlumata görə, Ermənistan silahlı qüvvələri mülki avtomobildən PUA-ların zərbə və kəşfiyyatına nəzarət mərkəzi kimi istifadə edib. Mülki avtomobil mayın 12-də Ermənistanın hərbi təxribatının qarşısının alınması zamanı məhv edilib. Görüntülərə diqqət yetirərkən partlayış yerindən təşviş içində qaçan iki erməni əsgərdən fərqli olaraq, qara ködəkçəli şəxsin peşəkarlıqla hadisə yerindən sürünərək uzaqlaşdığı görünür. Həmin şəxsin NATO standartlarına uyğun yüksək təlim keçdiyi hiss olunur. Söhbət fransız hərbi təlimçidən gedir. Üstəlik, NATO-nun təlimi ilə belə “mülki” mütəxəssislərin peyda olması birinci hal deyil. Oxşar siqnallar şərti sərhədin digər hissələrindən də gəlir.

Bir sözlə, Fransa Cənubi Qafqaz regionunun zəif bəndi hesab edilən Ermənistanın əli ilə Azərbaycana qarşı proksi müharibəyə başlayıb. Təbii ki, Azərbaycan istənilən təxribarın qarşısını alacaq və beynəlxalq qanunlara uyğun addımlar atacaq. Sadəcə, NATO-nun və Avropa İttifaqının üzvü olan Fransanın belə ucuz yola düşməsi həm demokratiya, həm də “Köhnə dünya”nın adına böyük biabırçılıqdır.

**S.ELCAN,**
**“Xalq qəzeti”**

# Paşinyan iki od arasında



**Ermənistanın Azərbaycanla şərti sərhəddə törətdiyi təxribatlar iki ölkənin rəhbər şəxslərinin bu gün Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək görüşü ərəfəsində də bitmək bilmir. Bu təxribat zamanı Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun üzbəüz mövqeləri istiqamətində zərbə pilotsuz uçuş aparatları tətbiq edir, minaatanlardan, D-30 toplarından atəş açır.**

Bundan başqa, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsi tərəfindən ordumuzun Tərtər, Xocalı, Şuşa və Laçın rayonları istiqamətlərində yerləşən mövqeləri müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə məruz qalır. Təəssüf ki, qarşı tərəfin davam edən təxribatı nəticəsində mayın 12-də axşam saatlarında ordumuzun əsgəri Qarayev Məhəmməd Mahir oğlu da şəhid olub. Bununla da son təxribatlar nəticəsində şəhid olan hərbçilərimizin sayı ikiyə çatıb.

Rəsmi İrəvanın yüksək səviyyəli danışıqlar ərəfəsində törətdiyi bu düşünülmüş təxribat, şübhəsiz ki, görüş zamanı hansısa nəticənin əldə edilməsinin qarşısını almağa xidmət edir. Haylar hər zaman bu cür davranırlar. Bu, Ermənistan rəhbərliyinin dəyişilməz taktiki gedişidir. Hər dəfə sülh prosesində kiçik bir irəliləyiş qeydə alındıqda onlar növbəti inkişafın qarşısını almaq üçün təxribat törədirlər. Ayın əvvəlində ABŞ-dakı danışıqlardan sonra Brüsseldə keçiriləcək görüşdə irəliyə doğru addım atılacağına dair ümid yaranmışdı. Ancaq rəsmi İrəvanın təxribatı Brüsseldə hansısa razılığın əldə ediləcəyini bəri başdan şübhə altına alır.

Bəzi ekspertlər isə bu fikirdədirlər ki, budəfəki təxribat Ermənistan ordusundakı “beşinci kolon”un əməli ola bilər. Onlar öz fikirlərini bununla əsaslandırırlar ki, Qərbin vasitəçiliyi ilə aparılan danışıqlar Rusiyanın maraqları ilə toqquşur. Odur ki, ordudakı “beşinci kolon” işə düşərək Qərbin vasitəçiliyinin uğursuz olması üçün qanlı insidentlər törədir. Onu da qeyd edək ki, orduda “beşinci kolon”un mövcudluğunu Ermənistan hökumətinin müxtəlif üzvləri zaman-zaman etiraf ediblər. Sonuncu dəfə bu istiqamətdə öz fikirlərini Ermənistan istintaq komitəsinin sədri (əvvəllər milli təhlükəsizlik xidmətinin rəhbəri olub) Arqişti Karamyan mayın 9-da İrəvandakı Qələbə parkında jurnalistlərlə söhbəti zamanı açıqlayıb. İstintaq komitəsinin rəhbəri ordudakı “beşinci kolon”la bağlı suala cavab olaraq deyib: “Beşinci kolon” var idi. Düşünürəm ki, hələ də var. Vaxt gələcək cəmiyyətimiz “beşinci kolon”un nümayəndələrinin kimlər olduğunu dəqiq biləcək. Söz verirəm”.

Üstəlik, nəzərə almaq lazımdır ki, bir neçə gün öncə Nikol Paşinyan Rusiya paytaxtında səfərdə olub. Şərti sərhəddəki təxribat Paşinyanın parad niyyətli Moskva görüşünün fəsadı kimi də qiymətləndirilə bilər. Hadisələrin xronologiyasını izlədikdən sonra aparılan təhlillər baş verənlərin təsadüf olmadığını deməyə əsas verir.

Bundan əlavə, görüş ərəfəsində Ermənistanda baş verən bir sıra hadisələr, o cümlədən, İrəvanda Azərbaycan və Türkiyə bayraqlarının yandırılması, “Nemezis” terror aktını törədənlərə abidə qoyulması, iki əsgərimiz üzərində qurama “məhkəmə prosesi”nin keçirilməsi, onlardan birinin 11,5 il müddətinə azadlıqdan məhrum edilməsi hayların sülh, azərbaycanlılarla mehriban qonşuluq münasibətləri barədə düşünmədiklərini nümayiş etdirir. Bütün bunlar Ermənistan cəmiyyətinin, bütövlükdə, revanşist əhval-ruhiyyədə olduğunu demək üçün kifayət qədər əsas yaradır.

Ermənistanın sülh sazişi üzrə danışıqlar prosesini pozmağa yönəlmiş təxribatları və təcavüzü ilə bağlı Azərbaycanın ATƏT yanında Daimi Nümayəndəliyi də öz etiraz səsini ucaldıb. Daimi Nümayəndəlik ATƏT-in Daimi Şurasının iclasında xüsusi bəyanatla çıxış edib. Bəyanatda 10-12 may tarixlərində Ermənistan tərəfindən növbəti hərbi təxribatın törədildiyi, nəticədə Azərbaycan Ordusunun 2 hərbi qulluqçusunun şəhid olduğu, ordumuzun 1 hərbi qulluqçusunun isə ağır yaralandığı diqqətə çatdırılıb. Vaşinqton görüşündən dərhal sonra qəsdən törədilmiş bu təxribatın, Ermənistanın sülh gündəliyinin irəli aparılmasında maraqlı olmadığını göstərdiyi bildirilib. Son dövrlərdə Ermənistanda baş verən hadisələrin, xüsusilə Azərbaycan əsgərləri üzərində qondarma “məhkəmə prosesi”nin keçirilməsinin, “Nemezis” terror əməliyyatına həsr olunmuş abidənin qoyulmasının bölgədə sülh və təhlükəsizliyə təhdid törətdiyi, revanşizm meyillərini artırdığı qeyd olunub.

Bəyanatda, həmçinin normallaşma gündəliyinin təşəbbüskarı olan və hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işləri aparan Azərbaycanın gərginlikdə maraqlı olmadığı, habelə təxribatların qarşısını almaq üçün bütün lazımi tədbirləri gördüyü bildirilib. Ermənistanın bu kimi təxribatlarının beynəlxalq ictimaiyyət tərəfindən qınanılmalı olduğu, o cümlədən, bu ölkəni sülh gündəliyinə sadiq qalmağa təşviq etmək məqsədilə beynəlxalq səylərin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Ancaq göründüyü kimi, təcavüzkarın növbəti təxribatı beynəlxalq ictimaiyyət tərəfindən qınanılmır. Ermənistan rəhbərliyinin şərti sərhəddə kənardan idarə olunan qüvvələrin əli ilə törətdiyi təxribatla bağlı dünya ictimaiyyəti, o cümlədən, ATƏT heç bir tədbir görmür və təcavüzkarı qınaq mexanizmi yaratmır. Bu istiqamətdə beynəlxalq birliyin səyləri gücləndirilmədən rəsmi İrəvanın sülhə gələcəyi heç də inandırıcı görünmür.

İmperator I Nikolayın dövründə cinayət işlətmiş şəxsin iki cərgə əsgərin arasından keçirilməsi kimi bir cəza növü olub. Bu cəza növü böyük rus ədibi Lev Tolstoyun “Hacı Murad” povestində ətraflı təsvir edilib. Belə ki, müqəssirlər birbaşa ölümə məhkum edilmir, ancaq onlar iki cərgənin arasından keçirilir, bu zaman onlara çubuqla 12 min dəfə zərbə vurulurdu. Heç 12 min dəfəyə ehtiyac qalmırdı. Bir neçə zərbədən sonra huşunu itirən şəxs sonrakı zərbələrdə dünyasını dəyişirdi. İndi Paşinyan da ayrı-ayrı siyasi qütblərin cərgələri arasından keçməyə məhkum kimi görünür. Onun bu cərgələr arasında, mövcud geosiyasi turbulentlik (burulğanlar) şəraitində nə qədər duruş gətirəcəyini isə zaman göstərəcək.

**Səxavət HƏMİD,**
**“Xalq qəzeti”**

## Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



Ermənistanın hərbi-siyasi rəhbərliyi şərti sərhəddə törətdiyi təxribatlarla Brüssel görüşünün nəticəsiz olmasına çalışır. Rəsmi İrəvan sülh prosesinə açıq, şəffaf və səmimi yanaşmır. Ermənistan həm də üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməmək kontekstində vaxt qazanmağa çalışır, məsuliyyətdən boyun qaçırır, eyni zamanda, bölgədə yaranmış yeni geosiyasi reallıqları dəyişməyə uğursuz cəhdlər edir. Bütün bunlar onu göstərir ki, Brüssel formatında görüşlər keçirilsə də, İrəvan revanşist əməllərindən əl çəkmək niyyətində deyil. Bu yanaşma siyasi sahədə problemlərin nizamlanması müstəvisində böyük çətinliklər yaradır. Ancaq mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda beynəlxalq konfransda cənab İlham Əliyevin dediyi kimi, əgər onlar konstruktiv olmasalar, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət – söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir – dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin haylar üçün, bu, böyük çağırış olacaqdır.

# Heydər Əliyev dərsləri



(əvvəli "Xalq qəzeti"nin 7 may 2023-cü il nömrəsində)

### Rus qoşunlarının qarşısı necə alındı?

Ataşkəs dövründə Kreml, guya, ataşkəsi təmin etmək üçün rus qoşunlarının Azərbaycana gətirilməsinə dəfələrlə təşəbbüs göstərmişdi. Hətta bir dəfə bu təşəbbüs, az qala, gerçəkləşəcəkdi. Heydər Əliyev ölkəni bu xatadan necə xilas etdiyini 2001-ci ilin fevralında belə xatırlayır:

Ümid edirdik ki, ataşkəs dövründə məsələnin sülh yolu ilə həllinə nail olacağıq. Ancaq bəlkə çoxları bilmir. Biz həmin o günlər bir xatadan qurtardıq. Onda bu məsələdə əsasən Rusiya vasitəçilik edirdi. Baxmayaraq ki, Minsk qrupu da var idi. Amma Rusiya təşəbbüsü öz əlinə keçirmişdi. Ataşkəs haqqında saziş imzalandı və dərhal Rusiyanın müdafiə naziri xahiş etdi ki, qoy Ermənistanın və Azərbaycanın müdafiə nazirləri Moskvaya gəlsinlər, oturaq, məsləhətləşək ki, torpaqları bundan sonra necə azad edək. Buna inandıq. Müdafiə nazirimizi oraya göndərdik. O vaxt Məmmədov familyalı bir nazirimiz var idi. Təəssüf ki, o vaxtlar müdafiə nazirlərinin bir neçəsi layiqli insanlar olmayıblar.

Ancaq sabahı gün nə baş verdi? Onda Minsk qrupunun həmsədri yox idi, sədr idi. İsveçdən Yan Eliasson sədr idi. O, Ermənistanda olmuşdu, sonra buraya gəlmişdi. O da ataşkəsin yaranmasında iştirak edirdi. Mən onunla danışıq aparırdım. Birdən mənə xəbər verdilər ki, Moskvadan televiziya göstərir ki, Qraçov böyük iclas keçirir və orada tədbirlər görür ki, Azərbaycanda nə etmək lazımdır. Mən dərhal narahat oldum. Moskvada müdafiə nazirimizi axtardım. Nə meydana çıxdı? Meydana çıxdı ki, buradan Rəsul Quliyevin razılığı ilə, Moskvada da bizim səfirin iştirakı ilə orada belə bir danışıq gedir ki, ataşkəsi təmin etmək üçün Rusiya öz ayırıcı qoşunlarını bölgəyə göndərsin. Həsən Həsənov buradadırmı?

**Həsən Həsənov** (keçmiş Xarici işlər naziri -F.S.): Bəli, cənab Prezident.

**Heydər Əliyev:** Yadındadırmı?

**Həsən Həsənov:** Bəli, çox yaxşı yadımdadır.

**Heydər Əliyev:** Gecə səhərə qədər neçə saat...

**Həsən Həsənov:** Onu səhər saat 7-də tapdıq.

**Heydər Əliyev:** Mən onu saat 7-də məcbur etdim ki, təcili təyyarəyə min, buraya gəl. Yadındadır?

**Həsən Həsənov:** O bir müddət gizləndi. Hətta iki saat onu tapa bilmədik, gec gəldi.

**Heydər Əliyev:** Bəli. Gizləndi, bizə xəyanət etdi. Bununla qurtarmadı. Ondan üç gün sonra Rusiyanın Müdafiə Nazirliyinin böyük tərkibdə generalları Azərbaycana planlarla gəldilər ki, harada nəyi yerləşdirəcəyik və sizə kömək edəcəyik ki, Ermənistan qoşun hissələri buradan çıxsınlar. Mən onları dinlədim, dedim təşəbbüsünüzə görə sağ olun. Amma bizim buna ehtiyacımız yoxdur. Çox cəhd etdilər, bəlkə biz gedək, yenə baxın. Dedim, yox. Xahiş edirəm ki, siz buradan dönüb öz yerinizə gedəsiniz. Biz o vaxt belə bir təhlükədən qurtardıq.

### "Mən "sərt lider" anlayışı ilə razı deyiləm"

Çoxları Heydər Əliyevi sərt adam kimi səciyyələndirirdi. Bu, doğrudanmı, belə idi? Ulu öndər 1998-ci ilin aprelində Rusiyanın "İzvestiya" qəzetinin müxbirinə verdiyi müsahibədə bu suala tam dolğunluğu ilə belə cavab verib:

**Müxbir:** Sizi sərt, bəziləri isə avtoritar siyasətçi adlandırırlar. Əgər belə qiymətə razısınızsa, onda öz üslubunuzu nə ilə izah edərsiniz – siyasi vəziyyətlə, milli mentalitetlə, Şərq xüsusiyyətləri ilə?

**Heydər Əliyev:** Məni nahaq yerə "sərt lider" hesab edirlər. Mən belə qiymətə razı deyiləm. Sərtlik, yumşaqlıq – bunlar subyektiv anlayışlardır. Siyasətçi ya liberal, ya da prinsipial ola bilər. Bir var ki, siyasətçi prinsipial mövqe tutur və onu ardıcıl surətdə həyata keçirir, – bu, sərt deyil, qəti mövqedir. Liberal insanın belə hesab etməsi isə tamam başqa məsələdir ki, hər şey rəvandır – belə də etmək olar, elə də – bu halda mövqe səbatsız, yaygın, cəmiyyət üçün anlaşılmaz olar. Əminəm ki, hakimiyyətdə olan insan liberal ola bilməz. O ki qaldı, mənə, təkrar edirəm, mən "sərt lider" anlayışı ilə razı deyiləm, əksinə, özümü öz mövqelərini dürüst müəyyənləşdirmiş, onları qorumağı və öz qərarlarını qətiyyətlə həyata keçirməyi bacaran adam sayıram. Xarakterimin və iş üslubumun xüsusiyyətləri sizin dediyiniz kimi, Şərq mentaliteti ilə əsla bağlı deyildir. Əlbəttə, mən öz millətimə mənsubam və xarakterimdə milli xüsusiyyətlər çoxdur və bununla fəxr edirəm. Lakin böyük siyasət onunla ciddi məşğul olmağı qərara almış hər bir kəsdən müvafiq mentalitet tələb edir.

### Suslovu belə susdurdu

M.Suslov sovet partiya və dövlət xadimi, qatı kommunist ideoloqu kimi rəhbər elitada çox yüksək nüfuza malik idi. "Boz kardinal" ləqəbi verilmiş bu siyasətçi ilə heç kim üz-üzə gəlməyə, mübahisəyə girişməyə cürət etməzdi. Heydər Əliyev cəsarəti belə xoflardan çox uzaq idi. Bunu sübut edən hadisələrdən birini ulu öndər sonralar belə xatırlayır:

– Mən yenə də Nizaminin yubileyinə qayıdıram. Məsələn, Nizaminin əsərləri hələ 1947-ci ildə tərcümə olunub, nəşr edilibdir. Ondan sonra Azərbaycanda bu sahədə işlər həmin əsas üzərində davam etdirilibdir. Şübhəsiz ki, ondan sonra biz Nizami Gəncəvinin 840 illik yubileyini də keçirdik. Xatirimdədir, Moskvada buna nə qədər mənfi münasibət göstəriblər. Mən təklif vermişdim ki, Nizami Gəncəvinin 840 illik yubileyini keçirmək lazımdır. O vaxt Mərkəzi Komitənin ikinci katibi Suslov mənə dedi ki, axı bu, yuvarlaq tarix deyil, gərək ya 800, 850, ya da 900 olsun. O vaxt mənim ona dediyim sözlər Moskvada da geniş yayılmışdı. Mən dedim ki, "Hörmətli Suslov, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır". Biz o vaxt Nizaminin 840 illik yubileyini keçirdik.

### V. Çernomırdin: "Heydər Əliyev məni elə bir vəziyyətə qoydu ki..."

Heydər Əliyev ATƏT-in Minsk qrupu həmsədrləri və həmin ölkələri təmsil edən rəsmi şəxslərlə görüşlərində onları fəaliyyətsizlikdə və birtərəfli mövqedə durmaqda ittiham edirdi. Hətta görüşlərin birində Rusiya Federasiyasının keçmiş baş naziri V. Çernomırdini elə bir çıxılmaz vəziyyətə salmışdı ki, sonralar Rusiyanın bu tanınmış siyasətçisi nə edəcəyini bilmədiyini etiraf etmişdi. Ulu öndər bunu belə xatırlayır:

– Rusiyanın Xarici işlər naziri sentyabrın əvvəlində burada olmuşdur. Əgər televiziyada gördünüzsə – qəzetlərdə də yazılıb – mən ona nə qədər kəskin sözlər dedim. Ondan sonra Amerika Prezidentinin bu məsələlər üzrə xüsusi səfiri Kavano buraya gəlmişdi – ona necə kəskin sözlər dedim. Fransa Minsk qrupuna yeni səfirini təyin edibdir. Dünən ona da kəskin sözlər dedim. Ondan əvvəlkilərə də... Rusiyanın Xarici işlər naziri, ola bilər ki, televiziya qarşısında o cür kəskin sözləri ömründə heç vaxt eşitməmişdi. Arada Çernomırdin bura gəldi. Artıq o, Baş nazir deyildi. Amma Yuqoslaviya məsələsini həll etmək üçün Yeltsin onu səlahiyyətli nümayəndəsi təyin etmişdi. Bu da bütün MDB ölkələrini gəzib bizim fikirlərimizi öyrənmək üçün gəlmişdi. O, neçə il Baş nazir olmuşdu. Mən ona neçə dəfə demişdim ki, Azərbaycana gəl. Gələ bilməmişdi, vaxtı olmamışdı.

Yuqoslaviya məsələsi qaldı kənarda, bütün mətbuatın qarşısında mən bunu əvvəldən axıra qədər ittiham etdim – Dağlıq Qarabağ məsələsi ilə əlaqədar. O, bilmirdi nə etsin. Sonra gedib başqa bir MDB dövlətinin prezidenti ilə görüşündə demişdi ki, Heydər Əliyev məni elə bir vəziyyətə qoydu ki, bilmədim nə edim. Çünki bütün mətbuatın qarşısında mənə o cür sözlər dedi, mən ona heç bir cavab verə bilmədim...

### Jak Şiraka demişdi ki, biz sizə inanmırıq

Heydər Əliyev ATƏT-in Minsk qrupu formalaşarkən Fransanın həmsədrliyinin qəti əleyhdarı olmuşdu. O, mövqeyini Parisə səfəri zamanı Fransa Prezidenti Jak Şirakın üzünə demişdi. Ümummilli lider bu barədə belə deyir:

– Lissabon zirvə görüşünü götürək. O vaxta qədər Minsk qrupunda Rusiya hakim idi. Mən məsələni qoydum ki, artıq belə olmaz, gərək Amerika Birləşmiş Ştatları da Rusiya ilə bərabər həmsədr olsun. Amerika Birləşmiş Ştatları ilə danışdıq və söz verdilər ki, əgər onlar həmsədr olsalar, bu işi irəliyə apara biləcəklər. Biz bu təklifi verdik. Rusiya və Ermənistan Amerika Birləşmiş Ştatlarının əleyhinə çıxdılar. Mən dedim ki, yox. Amerika Birləşmiş Ştatlarının nümayəndələri də bizə deyirlər ki, siz möhkəm durun. Fransanın namizədliyini verdilər. Yanvar ayının 11-12-si idi. Fransa Prezidenti Jak Şirak məni səfərə dəvət etmişdi. O vaxt da bu məsələ həll olunurdu. Mən gəldim, Prezident sarayında – Yelisey sarayında o, məni təmtəraqlı qəbul etdi və danışıqlar apardı. Danışıqlarımızın yarısı bunun üstündə oldu ki, siz niyə bizim həmsədr olmağımızı istəmirsiniz? Təsəvvür edin, Fransanın Prezidenti kimi çox hörmətli, dünya siyasətində böyük bir yer tutan adama – mən onun qonağı olduğum halda – üzbəüz dedim ki, biz sizə inanmırıq. Çünki burada ermənilər çoxdur, ermənilərin burada təsiri çoxdur. Biz sizə inanmırıq. Siz istəyirsiniz inciyin, istəyirsiniz inciməyin…

(ardı var)

*Təqdim etdi:*
***Faiq SADIQOV,***
*Əməkdar jurnalist*

---

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) Əlişir Nəvayi adına Özbək Dili və Ədəbiyyatı Universiteti ilə birgə ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı "Heydər Əliyev və müstəqillik" mövzusunda konfrans keçirib.**

## Daşkənddə "Heydər Əliyev və müstəqillik" konfransı

Tədbirdə universitetin professor-müəllim heyəti, AMM-in nümayəndələri, tələbələr, Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Yığıncağı giriş sözü ilə açan universitetin prorektoru, professor Bahadır Xalıqov Özbəkistan–Azərbaycan münasibətləri, ölkələrimiz arasındakı tarixi, mədəni yaxınlıq barədə məlumat verib. O, ulu öndərin Azərbaycanın müasir dövlətçiliyinin əsasını qoyduğunu, biliyə, elmə və texnologiyaya böyük əhəmiyyət verdiyini bildirib. B.Xalıqov Heydər Əliyev Fondunun hökumətin həyata keçirdiyi təhsil siyasətinə güclü dəstək verdiyini və "Yeniləşən Azərbaycana – yeni məktəb" kimi layihələr çərçivəsində ölkədə yüzlərlə məktəb binasının inşa edildiyini vurğulayıb.

AMM-in nümayəndəsi, filologiya üzrə fəlsəfə doktoru Kərimulla dığını, ulu öndərin müdrik fikirlərinin özbək və türk dillərinə tərcümə olunaraq nəşrə hazırlandığını vurğulayıb.

Universitetin kafedra müdiri, professor Nurbay Cabbarov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin elm və təhsilin inkişafına böyük diqqət ayırdığını və bu sahələrin inkişafı üçün müasir prinsiplərə cavab verən addımlar atdığını söyləyib. O müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi islahatların qlobal xarakter daşıdığını və bu xəttin ölkənin hazırkı rəhbərliyi tərəfindən inamla davam etdirildiyini bildirib.

Professor Səadət Muxammedova müasir Azərbaycan dilinin bir dövlət dili kimi formalaşmasında, gücləndirilməsində ulu öndərin xüsusi xitmətlərindən söz açıb.



Məmmədzadə ulu öndərin Azərbaycan xalqının taleyində oynadığı roldan söz açıb, bugünkü qüdrətli Azərbaycanın Heydər Əliyevin əsəri olduğunu vurğulayıb. Azərbaycan xalqının ümumilli liderinin həyatının, siyasi fəaliyyətinin bir məktəb olduğunu qeyd edən K.Məmmədzadə gənc nəslin yetişməsində bu



məktəbdən faydalanmağı tövsiyə edib, onun nitqlərində yer alan ümumbəşəri hikmətli fikirlərin hər bir vətəndaş üçün həyat kodeksi olmasını vurğulayıb. K.Məmmədzadə artıq bu sahədə bir neçə böyük tədbirin keçirildiyini, konfransların, dostluq konsertlərinin təşkil olunduğunu, Özbəkistanda "Heydər Əliyev – 100" poçt markasının buraxıl-

Universitetin dosenti Gülbahar Aşurova Heydər Əliyevin elm, təhsil və mədəniyyətə dəstək verən siyasətçi kimi xarakterizə edərək onun Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən danışıb.

Sonda Mədəniyyət Mərkəzi tərəfindən universitetdə yaradılan Məhəmməd Füzuli adına Azərbaycan ocağının tələbələrindən ibarət "Füzuli dilbəndləri" qrupunun üzvləri Heydər Əliyev və Azərbaycan haqqında şeirlər səsləndiriblər.

**Qulu KƏNGƏRLİ,**
**Daşkənd**

---

## Tbilisidə "Milli dövlətçiliyimizin simvolu" kitabının təqdimatı

**Tbilisidə Azərbaycan və gürcü dillərində nəşr edilmiş "Milli dövlətçiliyimizin simvolu" kitabının təqdimatı olub.**



Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Eldar Bayramov çıxış edərək, kitabın ulu öndərin 100 illik yubileyi tədbirləri çərçivəsində çap olunduğunu bildirib. Qeyd edib ki, epoxaların ekstremallığına baxmayaraq, milli-siyasi elitamız Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə millətin varlığının qorunması və inamla gələcəyə addımlaması istiqamətində üzərinə düşən missiyanı layiqincə yerinə yetirib.

Gürcü politoloqlar Levan Mamaladze, Simon Kopadze, Gürcüstan parlamentinin deputatı Baçuki Kartava, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Tbilisi Dövlət Universitetinin professoru Niko Cavaxişvili və digərləri çıxışlarında çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycan–Gürcüstan dostluğunun inkişafındakı xidmətlərindən danışıblar. Bildiriblər ki, Heydər Əliyevlə Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze arasındakı möhkəm dostluq ölkələrimizin münasibətlərinin əsasını təşkil edir. Bu gün regionda həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrinin Gürcüstan ərazisindən keçməsi də Heydər Əliyevin adı ilə bağlıdır.

*"Xalq qəzeti"*

# İsveçli səyyahlar: gözəl Qarabağı viran qoymaq bəşəri cinayətdir

## *Dağıntıların miqyası tükürpədicidir*




**Xəbər verdiyimiz kimi, İsveçin "Klub 100" təşkilatının Füzuli–Xocavənd–Ağdam–Tərtər–Kəlbəcər–Laçın–Zəngilan–(Xudafərin) xətti üzrə hərəkət edən səyahətçiləri ölkə mediasına açıqlamalarında şəhər və kəndlərimizdə törədilən vandalizm aktından dəhşətə gəldiklərini bildiriblər. Onların sözlərinə görə, özünü insan sayanın bu qədər qəddarlıqla bütöv bir bölgəni xarabazara çevirməsinə inanmaq çətindir. Bu yerdə insanlıq ləyaqətini itirib. Dağıntıların miqyası və mənzərəsi tükürpədicidir.**

Səfər zamanı xarici qonaqlara erməni cinayətkarlarının torpaqlarımızda törətdikləri ekoloji terror barədə də geniş məlumat verilib. Yaşı 300 ildən çox olan palıd, çinar ağaclarının, hektarlarla qoz ağaclarının, digər yaşıllıqların məhv edilməsi halları ciddi qınağa hədəf olub. Üç gün ərzində işğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa-quruculuq işləri xarici səyyahlarda xüsusi məmnunluq doğurub. Onlar quruculuq işlərinin geniş miqyasına heyran olduqlarını bildiriblər.

İsveç səyyahlar qrupunun üzvü Tereza Sundberq Laçına səfəri zamanı bərpa-quruculuq işlərinin geniş miqyasda aparılmasının onlarda xoş təəssürat yaratdığını deyib. Minatəmizləmə prosesini izləyən səyyah partlayış səsinin çox qorxulu və dəhşətli olduğunu deyib. O, mina terrorunun bəşəri cinayət olduğunu söyləyib.

Qrupun digər üzvü Sofia Granström qədim Xudafərin körpüsünün onda böyük maraq yaratdığını deyib. Bundan əvvəl müharibədən zərər çəkən ərazilərdə olmadığını bildirən xanım erməni vandallarının törətdiyi dağıntının acı mənzərəsinin həmişəlik yadında qalacağını vurğulayıb.

Finlandiyalı Maks Kolstrum isə işğaldan azad olan torpaqlarımızda bərpa və yenidənqurma işlərinin miqyası, bura yatırılan sərmayələrin sevindirici olduğunu bildirib. Mina təhlükəsi və minatəmizləmə prosesi ilə bağlı sualı cavablandıran səyyah deyib ki, dinc insanları məhv edən minaların basdırılması və onun nəticələri dəhşətdir. İnana bilmirsən ki, bunu qonşu ölkə edə bilər. Dağıntıların miqyası insanı dəhşətə gətirir. Bu vəhşilik və quldurluqdur.

Daha bir səyyah Bengt Hildebrand isə səyahət zamanı  xeyli məlumat topladıqlarını deyib. Zəngilan səfəri zamanı təbiət mənzərələrinin onu valeh etdiyini bildirən qonaq onu da qeyd edib ki, buranın dağları, xüsusilə Ömər aşırımı İsveçin şimalında yerləşən dağları xatırladır. Belə gözəl yerlərdə müharibə törətmək, dinc insanları öz yurdundan qovmaq, öldürmək bəşəri cinayətdir. Qafqazın çiçəkli dağlarını qanla suvaranlar mütləq tapılıb cəzalandırılmalıdırlar.

Xatırladaq ki, təşkilatın  30 nəfərdən çox üzvünün Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına – Qarabağ və Şərqi Zəngəzura səfəri 3 gün davam edib.

**Leyla AZAD, "Xalq qəzeti"**

# Qəbələ şəhid oğlunu dərin ehtiramla son mənzilə yola saldı



**Xəbər verildiyi kimi, mayın 12-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin növbəti sərhəd təxribatı nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Qarayev Məhəmməd Mahir oğlu şəhid olub.**

Şəhidin Azərbaycan bayrağı ilə örtülmüş cənazəsi Qəbələ şəhərinə ailəsinin yaşadığı evə gətirildi. Burada keçirilən ümumrayon vida mərasimində Məhəmməd Qarayevin ailə üzvləri, yaxınları ilə yanaşı, yüksək rütbəli hərbçilər, xidmət yoldaşları, rayon rəhbərliyi, ictimaiyyət nümyəndələri iştirak edirdilər. Çıxış edənlər şəhidin torpaqlarımızın düşmən hücumundan qorunması zamanı döyüşdə həlak olmasını vətənpərvərlik və igidlik nümunəsi kimi dəyərləndirdilər, xalqımıza, doğulduğu Qəbələyə və onu böyüdən ailəyə şərəf, başucalığı gətirdiyiyini vurğuladılar.

Mərasimin sonunda müqədəs Quran surəsi səsləndi, şəhidin ruhuna dualar oxundu. Məhəmməd Qarayevin cənazəsinin büküldüyü Azərbaycan Bayrağı onun atasına təqdim olundu.

Sonra Vətənin sonuncu şəhidinin cənazəsi Qəbələ şəhər qəbiristanlığında torpağa tapşırıldı.

2001-ci ildə anadan olmuş  Məhəmməd Qarayev ailənin tək oğlu idi, ali təhsil almışdı. O, hərbi xidmətinin bitməsinə 49 gün qalmış düşmən hücumunun dəf edilməsi zamanı şəhidlik zirvəsinə yüksəldi.

**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

**Qəbələ**

# Türk dünyasının ürəyi Şuşada döyünürdü

**Bu günlər Qafqazın incisi, mədəniyyət beşiyi gözəl Şuşa qardaş türk xalqlarını bir araya gətirib möhtəşəm bayram ovqatına köklədi. Dünyanın diqqətinin cəmləşdiyi Azərbaycanın bu dilbər guşəsində keçirilən mötəbər "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında zəngin irsə, dəyərlərə malik türkdilli xalqların öz mədəniyyət və incəsənətini təqdim etmələri olduqca qürurverici haldir. Qarabağın ürəyi olan doğma Şuşanın qoynunda bir-birindən möhtəşəm tədbirlərə şahidlik etdikcə, bu anı on illər boyu çox böyük ümidlə gözləyən hər bir azərbaycanlının qəlbi dağa dönür.**




**Onlardan biri Şuşada doğulub – böyümüş soydaşımız – "Şuşa" qəzetinin redaktou Vasif Quliyev doğma şəhərdən yenicə qayıdıb. Həmkarımız "Xarıbülbül" festivalı ilə bağlı təəssüratlarını "Xalq qəzeti" ilə bölüşərkən özünü kövrəlməkdən saxlaya bilmədi:**

– Şuşada "Xarıbülbül" festivalında dünya azərbaycanlılarının, ümumən, türk xalqlarının nümayəndələrinin ürəyinin döyüntüsünü hiss edirdik. Bizi çuğlayan Vətən duyğularını sözlə ifadə etmək mümkün deyil. Onun üçün gərək əsl azərbaycanlı olasan... Uzun illər qəddar düşmənin tapdağı altında köksünə çalın-çarpaz dağ çəkilən Şuşanın həsrətini, nisgilini sümüyünə, iliyinə qədər hiss edəsən.

**Qədim Qarabağ diyarı barədə çoxsaylı kitabların, çoxcildli ensiklopediyanın müəllifi Vasif Quliyev  deyir ki, bu günlər Şuşada gedən misilsiz quruculuq işləri ilə tanış olarkən qəribə hisslər keçirib:**

– Doğma şəhərimdə sürətlə gedən quruculuq işlərini görəndə çox qəribə hisslər keçirdim. Şuşanın başının müsibətlər çəkməsi qəlbimi ağrıtsa da, şəhərdə aparılan bərpa-quruculuq işləri yaralarıma məlhəm olur. Erməni barbarları ötən illər ərzində vəhşiliklə dağıtdıqları, yer üzündən silməyə çalışdıqları Şuşanın məğrurluğuna, vüqarına xələl gətirə bilməyiblər. Bu gözəl şəhərdə bir dənə də olsun salamat tikili qalmayıb. Sanki, dırnaqları, dişləri ilə şəhəri didib-parçalayıblar, təbiətin də köksünə dağ çəkiblər. Bunu ancaq vəhşi düşmən belə edə bilər. Heç kim öz yurduna, yuvasına, obasına belə divan tuta bilməz. Sanki, Şuşadan onun yurdsevər övladlarının acığını çıxıblar. Müzəffər Ali Baş Komandan İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə xalqa müraciətində səsləndirdiyi bu fikirləri, az qala, hər gün xatırlayıram: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik".

Bu gün əziz sakinlərini doyunca bağrına basan Şuşa elə sürətlə dirçəlir ki, düşmən baxdıqca dərdə düşür. Əminik ki, bizi qarşıda çox böyük zəfərlər gözləyir. İnanırıq ki, gün gələcək belə nüfuzlu tədbirləri Zəngəzurda, Xankəndində keçirəcəyik.

**Vasif müəllim Şuşada olarkən böyüyüb boya-başa çatdığı məhəllələri, küçələri, tarixi yerləri qarış-qarış gəzdiyini deyir. Təbiətindən heç zaman doymadığı Şuşanın hər ağacını, kolunu, hər daşını, kəsəyini, doğma torpağının hər qarışını əzizlədiyini, oxşadığını bildirir:**

– "Heç bilmirəm Şuşanın ayrılığına uzun illər necə tab gətirmişik. Bu gün hər birimiz gücümüz çatdığı qədər gözəl Qarabağımızın dirçəlməsinə səy göstərməliyik. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu tarixi qələbə qazanaraq torpaqlarımızı düşmən işğalından azad edib. Xalqımızın qəhrəman övladları Azərbaycanın bütövlüyü uğrunda canlarından keçiblər. Çalışmalıyıq ki, bu böyük Qələbəyə, Zəfərə hər birimiz layiq olaq. Əminik ki, Azərbaycan xalqını bundan da böyük qələbələr gözləyir!

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

Naxçıvan xəbərləri

# "Çınqıllı" suyunun istehsalı bərpa olunub

**Muxtar respublikaya yerli və xarici investorların marağı günbəgün artır. Yeni cəlb edilən investisiyalar hesabına fəaliyyəti dayanan müəssisələr bərpa edilir, yeni istehsal sahələri fəaliyyətə başlayır. Şahbuz rayonunun Keçili kəndindəki "Çınqıllı" su istehsalı müəssisəsi də bu tədbirlər çərçivəsində fəaliyyətini daha müasir formada davam etdirəcək.**



Obyektin yenidən işə salınması mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat verilib ki, mənbəyini kəndin səfalı dağlarından götürən saf bulaq suyu müəssisədə qatqısız və heç bir filtrizasiya prosesindən keçmədən təbii şəkildə qablaşdırılır.

Qabaqcıl ölkələrin istehsalı olan avadanlıqların quraşdırıldığı müəssisənin istehsal gücü gündəlik 42 tondur. Burada 4 istehsal xəttində 8 çeşiddə, 2 növdə - şüşə və plastik qablarda təbii bulaq suyu istehsal olunur. Yüksək keyfiyyətlə qablaşdırılan məhsullar muxtar respublikanın satış və xidmət obyektlərinə, eləcə də ölkə bazarlarına çıxarılır. Müəssisədə Keçili kəndindən 10 sakin işlə təmin olunub. İlin sonuna işçi sayı 30 nəfərə çatdırılacaq.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev kənd yaşayış məntəqələrində bu cür istehsal müəssisələrinin fəaliyyətə başlamasını Naxçıvanda sosial-iqtisadi inkişafa mühüm töhfə kimi dəyərləndirib.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova vurğulayıb ki, yaxın günlərdə Bakı şəhərində kənd təsərrüfatı və qida sənayesi üzrə beynəlxalq sərgidə ilk dəfə "Orqanik Naxçıvan" brendi də nümayiş etdiriləcək. Naxçıvanın "Çınqıllı" suyu da həmin sərgidə öz yerini alacaq.

"Himal Holdinq"in prezidenti Hacı Ələsgərov qarşıdakı aylarda holdinqin Şərurda böyük tekstil fabriki açacağını bildirib və tikinti sektoruna da investisiya qoyduğunu vurğulayıb. Bu layihələr çərçivəsində Naxçıvanda yüzlərlə yeni iş yerləri yaradılacaq.

## I Kitab Sərgisi



**Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi, "Naxçıvan" Universiteti və "Hədəf" Şirkətlər Qrupunun təşkilatçılığı ilə muxtar respublikada I Naxçıvan Kitab Sərgisi keçirilir.**

Sərgidə "Naxçıvan" Universitetinin rektoru Anar Kazımov, ANAİB-nin idarə heyətinin sədri sədri Şəmil Sadiq, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, yazıcı Varis Yolçuyev çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatının inkişafına diqqət və qayğısıdan danışıb, kitab və mütaliənin önəmindən bəhs ediblər.

İki gün davam edən sərgidə ölkənin 25 nəşriyyatın  braxdığı minlərlə kitabın endirimli qiymətlərlə oxuculara satışı təşkil olunub.

***Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"***

# Gənc Ailələrin I Forumu işə başlayıb



**Dünən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və "Addım" Yaradıcı Gənclər Assosiasiyasının təşkilatçılığı ilə Gənc Ailələrin I Forumunun açılış mərasimi keçirilib.**

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ölkəmizdə görülən işlərin, yürüdülən siyasətin mərkəzində insanın və onun inkişafının dayandığını bildirib. Sədr vurğulayıb ki, Beynəlxalq Ailə Günü ərəfəsində Azərbaycanda da ailə bayramının keçirilməsinin məqsədi cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, ailədə sülh və dözümlülük mədəniyyətinin təbliğidir.

Qeyd edək ki, mayın 14-dək davam edəcək forum çərçivəsində peşəkar təlimçi və ekspertlər tərəfindən fərqli interaktiv oyunlar, birgə müzakirələr, həmçinin işçi qruplar formatında görüşlər keçiriləcək.

***"Xalq qəzeti"***

# COVID-19 infeksiyasına 10 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 10 yoluxma faktı qeydə alınıb, 28 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 831 min 648 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 279 nəfər müalicə olunaraq sağalıb, 10 min 268 nəfər vəfat edib. Aktiv xəstə sayı 101 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1339, bu günə qədər isə ümumilikdə, 7 milyon 603 min 622 test icra olunub.

***"Xalq qəzeti"***

# Ölkəmizin valyuta ehtiyatları xarici borcdan 10 dəfə çoxdur

**Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu gün respublikamızın neft sektoru ilə yanaşı, qeyri-neft sahəsi də yüksək inkişaf göstəriciləri ilə diqqət çəkir. Bütün bunlar Azərbaycanın iqtisadi cəhətdən heç bir ölkədən asılı olmamaq və müstəqil siyasət yürütmək imkanını şərtləndirir.**



Prezident İlham Əliyev mayın 10-da Şuşa şəhərindən xalqa müraciətində bununla bağlı deyib: "Əgər iqtisadi gücümüz olmasaydı, ordumuzu müasirləşdirə və torpaqlarımızı işğaldan azad edə bilməzdik. Həmçinin hansısa mənbələrdən iqtisadi cəhətdən asılı olsaydıq, o dairələrin təsiri altında qalar və müstəqil şəkildə öz işimizi icra edə bilməzdik".

İqtisadiyyatın dinamik inkişafı, eyni zamanda, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımların əhatə dairəsini genişləndirir. Başqa sözlə, iqtisadiyyatın getdikcə güclənməsi sosial siyasətin davamlı şəkildə yürüdülməsinə əlverişli şərait yaradır. Belə ki, son illərdə əməkhaqları, pensiyalar və müavinətlərin dəfələrlə artırılması məhz bunun bariz ifadəsidir. Bununla yanaşı, indiyədək 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılması, Vətən müharibəsindən ötən müddətdə Azərbaycanın heç bir xarici dəstək almadan erməni faşizminin darmadağın etdiyi şəhər və kəndlərimizi yenidən qurması, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesini gerçəkləşdirməsi də ölkəmizin iqtisadi qüdrətinin məntiqi nəticəsidir.

Prezident İlham Əliyevin xalqa müraciətində toxunduğu bir məsələ ilə bağlı bir qədər ətraflı bəhs etmək istərdik. Dövlətimizin başçısının rəhbərliyi ilə 2003-cü ildən etibarən uzunmüddətli strategiya əsasında Azərbaycan Avropa üçün çox önəmli ölkəyə çevrilib. Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri – doqquz ölkə ilə strateji tərəfdaşıq sənədi imzalanıb. Bu, respublikamızın beynəlxalq mövqelərinin kifayət qədər güclənməsini şərtləndirib. Yaxud xarici borc probleminin həlli uğurla reallaşdırılıb. Dövlətimizin başçısının müraciətində bu məsələ bütün aydınlığı ilə diqqətə çatdırılıb: "Xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni, bizim valyuta ehtiyatlarımız xarici borcu təxminən 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir. Bizə bəzən dərs verməyə can atan bəzi ölkələrdə bu, 100 faizdir, bəlkə də çox. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq...".

Əlbəttə, vurğulanan belə bir məsələdə əldə edilən uğur təsadüfi deyil. Yuxarıda qeyd edildiyi kimi, bu məqsədə düşünülən uzunmüddətli strategiyanın həyata keçirilməsi sayəsində nail olunub. Xatırladaq ki, xarici borc probleminin həllində dövlət başçısı tərəfindən 2018-ci il 24 avqust tarixli sərəncamla təsdiqlənən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" mühüm rol oynayıb. Lakin ötən müddətdə koronavirus (COVID-19) pandemiyasının makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirindən, digər tərəfdən isə Vətən müharibəsində qazanılmış zəfər nəticəsində işğaldan azad edilmiş bölgələrin bərpası və yenidən qurulması zərurətindən irəli gələn yeni sosial-iqtisadi çağırışlar meydana gəlib. Bütün bunlar isə "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın yenilənməsini zəruri edib.

Daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində 2022-ci ilin sonu ilə müqayisədə birbaşa daxili dövlət borcunun səviyyəsi mütləq ifadədə 180,5 milyon manat məbləğində artmaqla aprelin 1-nə 4 milyard 368,7 milyon manat təşkil edib.

Göründüyü kimi, Azərbaycan dövlət borcu sahəsində davamlı şəkildə müsbət göstəricilər əldə edir. Bu, vurğulandığı kimi, xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzlənməsinin, dövlət borcunun idarəsi üzrə strategiyanın uğurla gerçəkləşdirilməsinin nəticəsidir.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

## *Ekspert rəyi*

**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**



"Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sı haqqında danışarkən, bir mühüm məqamı xüsusi qeyd etmək istərdim. Belə ki, adıçəkilən sənəddə istifadə olunan bir sıra makroiqtisadi göstəricilər, o cümlədən, ümumi daxili məhsul (ÜDM) və manatın ABŞ dollarına qarşı məzənnə göstəriciləri ortamüddətli dövr üçün (2022–2025) qəbul edilmiş makrofiskal çərçivəyə əsaslanır.

Eyni zamanda, sözügedən strategiyada dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji məqsədlərə çatmaq üçün bir sıra prioritet tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Onlar sırasında 2022–2025-ci illər üzrə dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 2025-ci ilin sonunadək 20 faizdən aşağı səviyyədə saxlanılması diqqət çəkir. Eyni zamanda, xarici dövlət borcunun ÜDM-ə nisbətinin 10 faizə çatdırılması uzunmüddətli hədəf kimi müəyyənləşdirilib və yenilənən strategiya həmin məqsədə çatmaq üçün 2025-ci ilədək həyata keçirilməli olan layihələri əhatə edir.

Yeri gəlmişkən, 2022–2025-ci illər üzrə yenilənən strategiyada ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında makroiqtisadi sabitliyə xələl gətirilməməsi, büdcənin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi, habelə tədiyə balansının tarazlığının pozulmasının qarşısının alınması, Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyinin qorunması, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin, habelə dövlətin əsas funksiyalarının (sosial təminat, səhiyyə, müdafiə, dövlət borcuna xidmət və s.) maliyyələşdirilməsi kimi bir sıra çağırışlar meydana gəlib.

Onu da qeyd edim ki, 2022–2025-ci illər üzrə yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Yuxarıda adıçəkilən strategiyanın təsdiqləndiyi 2018-ci il iyulun 1-dən etibarən ümumi dövlət borc portfelində xarici valyutada olan borcun payı 94 faizdən 20 faiz azaldılaraq cari ilin əvvəlinə 74 faiz təşkil edib, müvafiq olaraq daxili valyutada olan borcun payı isə 6 faizdən 26 faizə qədər yüksəlib.



# Azərbaycan kosmik ailədə mövqeyini möhkəmləndirir

## Yaxın illərdə respublikamız bu sahədən 1,5 milyard manat qazanc götürəcək

**Son illər ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafının təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bu sahədə yüksək nailiyyətlərə imza atan Azərbaycan Respublikası artıq 10 ildən çoxdur ki, beynəlxalq kosmik ailəsinin üzvü kimi tanınır.**

Xatırladaq ki, Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki–"Azərspace-1" 2013-cü il fevral ayının 8-də orbitə buraxılıb. Bununla da, regionda qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və əsas iştirakçısı olan Azərbaycan Respublikası kosmosda da öz varlığını təmin etməyə müvəffəq olub.

Ötən müddətdə Azərbaycanın 3 peyk layihəsinə, təxminən, 700 milyon manat investisiya yatırılıb. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyinin ("Azərkosmos") İdarə Heyətinin sədri Saməddin Əsədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Kosmik fəaliyyət haqqında" Qanun layihəsinin müzakirəsi zamanı deyib. Onun sözlərinə görə, bu xərcin 85 faizi beynəlxalq banklardan cəlb edilən kreditlər hesabına formalaşıb.

Dünya kosmik klubunun üzvü olması Azərbaycanın beynəlxalq nüfuzunun artmasına səbəb olmaqla yanaşı, ölkəmizə əlavə maliyyə resurslarının cəlb edilməsinə də imkan yaradıb. Təkcə onu qeyd etmək kifayətdir ki, "Azerspace-1" peykinin orbitə buraxılmasından ötən 10 il müddətində 515 milyon manat gəlir əldə edilib. Yaxın illərdə isə ölkəmizin kosmik fəaliyyətdən qazancı 1-1,5 milyard manatı keçəcək. "Azərkosmos"un rəhbəri S. Əsədov qeyd edib ki, ötən müddətdə bütün diqqət xarici bazarlara yönəldildiyindən qazancın 90 faizi məhz bunun hesabına əldə olunub. Yeri gəlmişkən, hazırda Azərbaycanın 42 ölkədə 182 müştərisi var. Bunların əksəriyyəti Afrika, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin payına düşür. Eyni zamanda, "Azərkosmos" dollar və avro ilə gəlir əldə etməklə ölkəmizə valyuta axınına dəstək verir.

Mayın 10-da Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində deyib: "Biz müasir texnologiyalara böyük önəm verərək Azərbaycanda yüksək texnologiyaların inkişafına hesablanmış çox düzgün addımlar atmışıq. Burada həm kadr potensialı məsələləri, eyni zamanda, bizim investisiyalarımız, sərmayələrimiz–biz indi kosmik dövlətə çevrildik. Azərbaycanda kosmik sənayenin inkişafının çox böyük potensialı var və gələcək də məhz bu istiqamətdə inkişaf edəcək. Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq".

"Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədovun bildirdiyinə görə, yaxın illərdə Azərbaycanın çox yüksək ayırdetmə peykləri olacaq. Bu isə ölkəmizin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin daha da artırılmasına xidmət edəcək. "Azersky-2" layihəsi üzrə ilk peykin 2025-ci ildə orbitə buraxılacağını bildirən S. Əsədov onu da qeyd edib ki, Azərbaycan üçün öz peyklərini hazırlamaq hələlik bir qədər çətin göründüyündən böyük ehtimalla peyklərin orbitə buraxılması üçün yenə də xarici şirkətlərin imkanlarından istifadə olunacaq. Bununla belə, "Azərkosmos" ilkin mərhələdə peyklərin hazırlanması və içinin yığılması ilə məşğul olacaq. Onun sözlərinə görə, yerli mütəxəssislər tərəfindən peyklərin hazırlanıb orbitə buraxılması isə 2027-ci ildə mümkün olacaq.

Azərbaycanın kosmik fəaliyyət sahəsində davamlı inkişafı üçün qarşıdakı illərdə ölkədə peyklərin istehsalı və testi kimi infrastrukturun formalaşdırılması planlaşdırılır. Son illər ölkəmizdə yetişən kadr potensialı da buna imkan yaradır. Məlum olduğu kimi, yerli mütəxəssislər 10 ildən artıqdır ki, peyklərin idarə edilməsi ilə məşğul olurlar. "Azərkosmos"dan bildiriblər ki, bu potensialdan tam istifadə etmək üçün ölkəmizdə yeni peyklərin istehsalı mərkəzi yaradılacaq və kosmik ekosistem formalaşdırılacaq. Bunun üçün isə həm dövlətin, həm özəl sektorun, həm də təhsil və tədris sahələrinin birgə fəaliyyət göstərməsi nəzərdə tutulur. "Azərkosmos"un rəhbəri S. Əsədovun dediyinə görə, Azərbaycanın 2030-cu ilə qədər kosmik baxışını, strateji fəaliyyət istiqamətlərini əks etdirən sənəd hazırlanıb. Həmin sənəd yaxın gələcəkdə hökumətə təqdim ediləcək.

Artıq ölkəmiz kosmik sənaye sahəsində də beynəlxalq aləmlə uğurla əməkdaşlıq edir. Beynəlxalq əməkdaşlığın nəticəsi olaraq "Azərkosmos" bu yaxınlarda İsrail şirkətləri ilə birgə yeni optik müşahidə peyk layihələrinin icrasına başlayıb. Bununla yanaşı, cari ilin sonuna qədər Malayziya orbitdəki mövqeyindən Azərbaycanın xeyrinə imtina edəcək. Bu barədə məlumat verən S.Əsədov qeyd edib ki, Azərbaycanın orbitdə yerləşdiyi 46-cı dərəcə meridianla bağlı Malayziya hökuməti tərəfindən hələ ötən əsrin 90-cı illərində ərizə verilib. Onun dediyinə görə, bu meridianı Azərbaycanla bölüşən Malayziya əlverişli əməkdaşlıq nəticəsində bu resursu ölkəmizə vermək qərarına gəlib. Cari ilin sonuna qədər proses başa çatdırılacaq və 46-cı dərəcə tam Azərbaycanın mövqeyi olacaq. Bu isə gələcəkdə ölkəmizə 4-6 peyk buraxmağa imkan yaradacaq.

Yeri gəlmişkən, yaxın illərdə ölkəmizdə kosmik fəaliyyət yeni prinsiplər əsasında həyata keçirilə bilər. Milli Məclisə təqdim olunmuş, "Kosmik fəaliyyət haqqında" qanun layihəsində bununla bağlı 5 prinsip nəzərdə tutulur. Həmin prinsiplər isə kosmik fəzadan sülh naminə istifadə edilməsi, milli maraqların qorunması, kosmik resurslardan səmərəli istifadə olunması, milli fəaliyyətə dövlət tərəfindən nəzarət edilməsi, eləcə də kosmik fəaliyyətin və kosmik sənayenin təhlükəsizliyi, kosmik tullantıların ətraf mühitə təsirinin azaldılmasından ibarətdir.

Göründüyü kimi, beynəlxalq peyk ailəsinin üzvünə çevrilmiş Azərbaycan artıq özünün kosmik sənayesini tam formalaşdırmağa nail olub. Ölkəmizdə kosmik sənayenin hərtərəfli fəaliyyətini təmin etmək məqsədilə yerüstü infrastrukturla yanaşı, kosmik məlumatların qəbulu, emalı və istehlakçılara çatdırılması üçün bütöv bir kompleks yaradılıb. Orbitdə peykimizin mövcudluğu Azərbaycanın rabitə sisteminin daha da təkmilləşdirilməsini, təbii ehtiyatların öyrənilməsini və operativ məlumatların əldə edilməsini xeyli asanlaşdırıb. Bununla yanaşı, ilk peykimizin fəaliyyətdə olduğu müddətdə Azərbaycanda radio və televiziya yayımının keyfiyyəti yaxşılaşdırılıb, yüksək sürətli internet şəbəkəsi və məlumatların ötürülməsi sistemi təmin olunub, ölkəmizin informasiya təhlükəsizliyinin qorunması xeyli gücləndirilib.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

# İnvestisiya potensialımız Əbu-Dabidə sərgilənib

**Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində 12-ci illik investisiya toplantısı keçirilib. Tədbir çərçivəsində təşkil olunan sərgidə "Invest in Azerbaijan" stendi ilə çıxış edən Azərbaycanın investisiya potensialı nümayiş olunub.**




Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən verilən məlumata görə, toplantıda Azərbaycanın investisiya imkanlarına dair təqdimat keçirilib. Rəsmi şəxslərin, iş adamları və investorların iştirak etdiyi Azərbaycanın ölkə təqdimatında İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Dövlət Turizm Agentliyi və Ələt Azad İqtisadi Zonasının nümayəndələri tərəfindən ölkəmizin investisiya imkanları, sahibkarlara dəstək göstərən qurumların fəaliyyəti, iqtisadi zonalarda yaradılmış əlverişli şərait və turizm potensialına dair məlumat verilib.

Bununla yanaşı, ölkəmiz sözügedən toplantı çərçivəsində təşkil olunmuş sərgidə "Invest in Azerbaijan" stendi ilə də təmsil olunub. AZPROMO və KOBİA-nın birgə təşkilatçılığı ilə stendimizdə Azərbaycan iqtisadiyyatına, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühitinə dair məlumatlar yerləşdirilib. Ölkə stendində, həmçinin işğaldan azad edilmiş Azərbaycan ərazilərinin potensialı və investisiya qoyuluşu imkanları barədə məlumat verilib, Ələt Azad İqtisadi Zonasında yaradılmış imkanlar, Dövlət Turizm Agentliyi tərəfindən ölkəmizin turizm potensialı təqdim edilib.

Xatırladaq ki, 2011-ci ildən etibarən hər il keçirilən və dünyanın müxtəlif ölkələrindən rəsmi şəxsləri, iş adamlarını, investorları bir araya gətirən illik investisiya toplantısı sahibkarlığın inkişafı üçün investisiya imkanlarının, sərmayələrin təşviqi tendensiyalarının və bu sahədə əməkdaşlığın müzakirə olunması, təcrübə mübadiləsi və yeni əlaqələrin qurulması baxımından əlverişli platformadır.

**"Xalq qəzeti"**

# Dövlət büdcəsinə 7 milyard 672,2 milyon manat vergi ödənilib




**İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" səhifəsində Dövlət Vergi Xidməti xətti ilə 2023-cü ilin yanvar-aprel aylarında dövlət büdcəsinə vergi daxilolmalarının həcminin 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 52,4 faiz artaraq 7 milyard 672,2 milyon manat təşkil etdiyini bildirib.**

Nazir qeyd edib ki, bu müddətdə qeyri-neft sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 16,7 faiz artaraq 4 milyard 3,4 milyon manat olub.

"Vergi daxilolmalarının artımında "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması istiqamətində atılan addımların əhəmiyyətli rolu var", – M.Cabbarov yazıb.

**"Xalq qəzeti"**

# Pərakəndə ticarət dövriyyəsi 3 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-aprel aylarında Azərbaycanın pərakəndə ticarət şəbəkəsində istehlakçılara 16,4 milyard manatlıq, o cümlədən 9,5 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 6,9 milyard manatlıq qeyri-ərzaq malları satılıb.**



Ötən ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 2,9 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,1 faiz, qeyri-ərzaq malları üzrə 4 faiz artıb.

**"Xalq qəzeti"**

# Qərbi azərbaycanlılar tarixi torpaqlarına qayıdacaqlar

**Hər bir xalqın tarixi mövcudluğu göstərir ki, onun üzləşdiyi çətin sınaqlardan çıxması və gələcəyə doğru getməsi bu toplumun yurdsevərliyi, vətənini, dilini, tarixi irsini qoruya bilməsi ilə mümkün olub. Zaman tarixi hadisələrin düzgün qiymətləndirilməsi baxımından ən ədalətli hakimdir.**

Bir xalqın mədəniyyətini, qəhrəmanlığını onun tarixən yaşadığı ərazilər özündə yaşadır. Bu baxımdan Azərbaycan əraziləri elə sivilizasiyanın inkişafa başladığı ən qədim tarixi insan məskənlərindən hesab olunur. Bütün tarixi mənbələr sübut edir ki, hazırkı Ermənistanın əhatə etdiyi ərazilər vaxtilə azərbaycanlıların sıx şəkildə məskunlaşdıqları ərazilər olmuşdur. Tarixi xəritələrə istinadən bu ərazilərin yer adları və insan məskənləri açıq şəkildə göstərilmişdir. Hətta yer adları Zəngibasar, Vedibasar, İrəvan mahalı, Göyçə mahalı adları ilə xəritələrə köçürülmüşdür. Adlarını qeyd etdiyimiz bölgələr Qərbi Azərbaycanın ən böyük əraziləri hesab olunurdu.

İndiki Ermənistanda mövcud olan Azərbaycan türklərinin məskunlaşdığı mahallarda orta əsrlərdə elm, sənət, musiqi, xüsusən aşıq yaradıcılığı inkişaf etmişdi. Qərbi Azərbaycanda tarixən yaşamış insanlar əsas etibarilə coğrafi şəraitinə görə əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olmuşlar. Lakin son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində soydaşlarımız ağır məhrumiyyətlərlə üzləşərək, milli faciəyə məruz qalmışlar.

Bir xalqın tarixini, dilini və mədəni irsini öyrənmək üçün onun tarixən məskunlaşdığı ərazilərə nəzər salmaq gərəkdir. Qərbi Azərbaycanın əsl sakinləri türkdilli xalq olmuşdur. Azərbaycan türkləri indiki Ermənistan ərazilərində e.ə. II əsrdən yaşamağa başlamışlar. Bu ərazilərdə yaşayan ilk qədim tayfalardan biri kimmerlər olmuşdur. Kimmerlər qədim türk tayfası olaraq məhz bu ərazilərdə məskunlaşmışlar.

Sözsüz ki, bu faktı əsaslı şəkildə sübut edən amillərdən biri tarixi toponimlərdir. Bu tayfanın adı indiki Ermənistan ərazilərinin yer adlarında öz əksini tapır. Hətta indiki Ermənistan Respublikasının paytaxtı İrəvan yaxınlığında Qəmərli və Eçmiədzin rayonlarında elə yer adları var ki, qədim kimmer türk tayfasının adını özündə əks etdirir. Tarixi mənbələr bir daha təsdiqləyir ki, indiki Ermənistan əraziləri qədim türk əraziləridir.

Bu ərazilərdəki toponimlərdə heç bir erməni izinə rast gəlmək mümkün deyildir. Hətta antropoloqlar arxeoloji araşdırmaları zamanı ermənilərin qalıqlarının iki əsrdən artıq bir zamanı əhatə etmədiyini vurğulayırlar. İrəvan xanlığı işğal edildikdən sonra Çar Rusiyası ilə Qacarlar arasında 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, İran və Osmanlı ərazisindən minlərlə erməni ailələri İrəvan, Qarabağ, Naxçıvan, Borçalı ərazilərində münbit torpaqlarda məskunlaşdılar. Onlar 6 il ərzində vergi və mükəlləfiyyətlərdən azad oldular. Çar Rusiyasının bu köçürmə siyasətinin məqsədi Osmanlı ilə Azərbaycan arasında bufer zona yaratmaq idi və bu məkrli plan baş tutduqdan sonra onun istiqamətləri daha da genişləndirildi.

İstər Gülüstan, istərsə də Türkmənçay müqavilələri həm Qərbi, həm də Cənubi azərbaycanlılara qarşı xəyanət aksiyaları idi. Qafqazda azərbaycanlılara qarşı aparılan məqsədyönlü soyqırımı siyasəti bu xalqın tarixində silinməz izlər qoydu. Bu, bir həqiqətdir ki, Qərbi Azərbaycan bizim bütöv Azərbaycanın bir parçasıdır.

Tarixin ədalətsizlik qurbanına çevrilmiş aborigen əhaliyə – azərbaycanlılara qarşı XIX əsrin əvvəllərindən başlayan soyqırımı, deportasiya, terror aktları mərhələ-mərhələ həyata keçirildi. 1905–1907-ci illər Azərbaycan türklərinə qarşı soyqırımı, 1918-ci ildə Bakıda və digər ərazilərimizdə kütləvi qırğın aktları, 30-cu illərdə ermənilərin soydaşlarımızın repressiya olunmasında fəal iştirakları onların türklərə qarşı açıq şəkildə qəzəbini və nifrətini əks etdirirdi. Çünki soyqırımı zamanı daşnaklar qəddarlıqlarını mülki insanların, günahsız qadın, qoca və uşaqların üzərində tətbiq edirdilər.

1948–1953-cü illərdə Qərbi Azərbaycan torpaqlarından 150 mindən artıq soydaşımız deportasiya edildi. Artıq yeni şüar əsasında Türksüz Ermənistan ideyasını gerçəkləşdirməyə başladılar. Nəhayət, 1987–1991-ci illərdə Qərbi Azərbaycan, indiki Ermənistan ərazisindən 250 minə yaxın soydaşımız öz ata-baba yurdlarını tərk etməyə məcbur oldular.

Təəssüflər olsun ki, tarixin çətin mərhələlərindən adlayan xalqımıza qarşı ədalətsizliklər sonda onların əzəli yurdlarını tamamilə itirməsi ilə nəticələndi. Yaxın tarixə nəzər salsaq, bu ağırlığın nə qədər məşəqqətli olduğunu bir daha görə bilərik. 1987-ci ildə ümummilli lider Heydər Əliyevin Moskvada öz vəzifəsindən istefa verməsindən sonra ermənilər fəallaşaraq 1987–1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Qərbi Azərbaycandan azərbaycanlıların kütləvi deportasiyasını təşkil etdilər. Bu, SSRİ rəhbərliyinin xalqımıza qarşı xəyanətkar siyasətinin son akkordları oldu.

Sonrakı tarixi dövrlərdə də bu ədalətsizliyə hüquqi qiymət verilmədi. Yalnız ulu öndər Heydər Əliyev bu tarixi ədalətsizliyə siyasi qiymət vermişdir. Müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyev 1997-ci il dekabrın 18-də "1948–1953-cü illərdə azərbaycanlıların kütləvi şəkildə Ermənistan ərazilərindəki tarixi-etnik torpaqlarından deportasiyası haqqında", 1998-ci ilin mart ayının 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqust ayının 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə siyasəti nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır.



Ulu öndərin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Vətən, dil, millət, yurd anlayışları müqəddəs amal olduğu üçün dövlətimiz torpaqlarımızın bütövlüyü naminə ədalətli mübarizə aparır. Prezident İlham Əliyev Qərbi Azərbaycanın tarixi coğrafiyası, etnik tərkibi, siyasi və elmi baxımdan araşdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyini dəfələrlə vurğulamışdır.

Tarix həqiqəti sevir və vətən anlayışı tarixin özündə formalaşır. Bu baxımdan tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycanda, indiki Ermənistan ərazilərində əsrlərlə xalqımızın soykökü, dili, ədəbiyyatı, musiqisi, adət-ənənələri, mədəni abidələri və bir sözlə, mədəniyyəti formalaşmışdır. Qədim İrəvan xanlığında və bütövlükdə indiki Ermənistan ərazisində İslam dininin VII əsrdən etibarən yayıldığından bu ərazilərdə yüzlərlə dini ibadət yerləri, daş abidələr, məscid və müsəlman yaşayış yerləri mövcuddur. Tarixi mənbələrdə qeyd olunur ki, bu ərazilərdə mövcud olmuş dini abidələr və müsəlman türklərin yaşadığı yerlər haqqında İrəvanda olmuş bir çox dünya səyyahlarının əsərlərindən kifayət qədər məlumat əldə etmək mümkündür.






Mənbələrdə o da göstərilir ki, 1912-ci ilə qədər Qərbi Azərbaycan ərazisində, xüsusən İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33 və Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərmişdir. Ümumiyyətlə, Qərbi Azərbaycanda mədəni tarix abidələrin sayı 8 minə yaxın olmuşdur. Lakin onların dəmək olar ki hamısı dağıdılaraq, vandalizm siyasətinin qurbanı olmuşdur. Tarixi torpaqlarımız olan indiki Ermənistan ərazilərində çoxlu sayda tarixi-memarlıq abidələri, şərq ornamentli imarət-karvansaralar, məqbərələr mövcud olmuşdur. Bu memarlıq abidələrində tarixi həqiqətləri özündə yaşadan milli-mədəni irsimiz erməni vandallığının qurbanına çevrilmişdir.

Qədim Azərbaycanın tarixini özündə əks etdirən İrəvanda Təpəbaşı adlanan məhəllə geniş bir ərazini əhatə edirdi. Təəssüf ki, azərbaycanlıların məskunlaşdığı bu tarixi məkan tamamilə dağıdılaraq viran edilmişdir. Hazırda Təpəbaşı adlanan ərazilərdə Ermənistan dövləti yeni tikililər inşa edərək, azərbaycanlılara məxsus olan yaşayış yerlərinin izlərini tarixin səhifəsindən silmək istəyirlər. Lakin buna cəhd olunsa belə, heç nə öz əzəli adını itirmir.



1918–1921-ci illərdə tarixi Azərbaycan torpaqlarında ilk erməni dövləti–Ermənistan Respublikası qurulduqdan sonra ermənilər azərbaycanlılara məxsus maddi-mədəni irsə qarşı vandalcasına, dağıdıcı münasibət göstərərək öz çirkin xislətlərini bir daha göstərdilər. Bu proses 1987-ci ildən başlanan deportasiyanın son mərhələsindən bugünədək davam edir. Mədəni-tarixi abidələrimizi dağıdaraq yer üzündən silməyə çalışmışlar ki, sübut etsinlər, guya, bu yerlərin "əsl sahibləri" özləridir.

Əlbəttə, bu ideya onların bir millət olaraq xəstə təfəkkürlərinin, uydurmalarının göstəricisi idi. Qərbi Azərbaycanda olan bütün tarixi abidələr içərisində İrəvan qəzasındakı Xan sarayı və Sərdar məscidi tarixi ornamentləri ilə xüsusilə seçilirdi. Hətta bu möhtəşəm məscid vaxtı ilə xalq arasında Abbas Mirzə məscidi kimi də tanınırdı. Bu abidə də tamamilə dağıdılmış və yerini yeni tikililər almışdır.1766-cı ildə tikilmiş Göy Məscidin bütün minarələri dağıdılaraq məhv edilmiş, yalnız bir əsas məqbərəsi saxlanılmışdır ki, onu da dünya ictimaiyyətinə fars məbədi adı altında təqdim edirlər.

Rəsmi məlumatlara görə, XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində hər biri memarlıq nümunəsi olan 310 məscid mövcud olmuşdur. XX əsrdə mərhələlərlə davam edən deportasiya siyasəti qədim ərazilərimizdəki tarixi abidələrimizin mənimsənilməsi, dağıdılıb viran qoyulması, yer adlarımızın erməniləşdirilməsi ilə nəticələnmişdir. Bu da onu göstərir ki, tarix səhnəsində xalqımız XX yüzilliyi faciələr, qırğınlar, soyqırımlar əsri kimi yaşamışdır.

Qərbi Azərbaycanda olduğu kimi, Qarabağda və Şərqi Zəngəzurda 30 illik işğal dövründə də qədim abidələrimizi, bütünlükdə mədəni irsimizi talamış və dağıtmışlar. Xalqımızla birgə milli sərvətlərimiz də vandallıq siyasətinin qurbanı olmuşdur. Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğul olmuşdur.

İstər Qərbi Azərbaycan torpaqlarında, istərsə də Qarabağda qədim tarixə malik olan monumental mədəniyyət abidələrimiz ya tamamilə dağıdılaraq məhv edilmiş, ya da "erməni mədəniyyətinin" nümunələri kimi ictimaiyyətə təqdim edilmişdir. Memarlıq abidələrinin üzərindəki türk simvollarının, qədim türk yazılarının məhv edilməsi xalqımızın milli mədəniyyətinə vurulan ən ağır zərbədir. Özlərini dünyaya "qədim xalq" , "mədəni ölkə" kimi tanıtmağa çalışsalar da, tarix bunun həmişə tam əksini göstərib. Tarix onu da sübut edib ki, Azərbaycan xalqının mədəniyyəti milli olduğu qədər bəşəridir, bəşəri olduğu qədər də əbədidir.

Azərbaycan xalqının mədəniyyət beşiyi olan Qarabağın erməni işğalçılarından azad edilməsi, Qərbi azərbaycanlıların öz ata-baba yurduna qaytarılması ulu öndər Heydər Əliyevin liderlik fəaliyyətinin əsas istiqamətini təşkil edirdi. Bununla bağlı ulu öndər çıxışlarının birində qeyd edirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyə böyük ümidlər bəsləyirəm".

Ata nəsihətini yerinə yetirən müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin canı, qazilərimizin qanı, ordumuzun şücaəti hesabına 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. Artıq Azərbaycan xalqı öz əzəli-əbədi torpaqlarına sahibdir. 44 günlük Vətən müharibəsi Ermənistanın kapitulyasiyası, təxminən 30 il davam edən işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.

Qarabağın azad edilməsi ilə Azərbaycanın xarici və daxili siyasətində yeni prioritetlər meydana çıxdı. Azərbaycan Ordusu Qarabağı və Şərqi Zəngəzuru azad etməklə, artıq soydaşlarımızın bütün tarixi ata-baba torpaqlarına qayıdışını təmin etmək üçün yol açdı. Bu ədalətli siyasətin gerçəkləşməsində dövlətimizlə yanaşı ictimai təşkilatların da üzərinə böyük öhdəliklər düşür. Qərbi Azərbaycan İcmasının yaranma zərurəti elə bu baxımdan mühüm aktuallıq kəsb edir.

Azərbaycan xalqının tarixi yaddaşı doğma torpaqlarımıza olan sevgini hər zaman qoruyub. Bu gün Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılır. Bu vacib məsələdə 2022-ci il 3 avqust tarixində qaçqınlar cəmiyyətinin bazasında yaradılan Qərbi Azərbaycan İcması birbaşa Ermənistan ərazilərindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyini təmin etməkdə çox fəallıq göstərən mərkəzə çevrilmişdir. Bu İcma 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir.

Qurumun İdarə Heyəti beynəlxalq müstəvidə fəal iş aparır. İcmanın məqsədi tarixin müəyyən dövrlərində etnik mənsubiyyətinə görə kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların ictimai-mədəni birliyinə nail olunmaqla, ata-baba torpaqlarımıza qayıtmaq üçün onların bütün hüquqlarının beynəlxalq səviyyədə bərpası və Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı tarixi-mədəni zəngin irsinin dünya ictimaiyyətinə çatdırılmasından ibarətdir. 2022-ci il dekabrın 24 - də Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışında əslən Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə Prezident İlham Əliyev demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır, bunu bir çox tarixi sənədlər, tarixi faktlar, tarixi xəritələr və tariximizin özü təsdiqləyir". Prezident İlham Əliyev qeyd etdi ki, bunu deməyə əsas verən bir çox amillər var, xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir.

Görüşdə Prezident İlham Əliyev bildirdi ki, Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar barədə məlumatlar mütləq bu icmanın xətti ilə dünya ictimaiyyətinə çatdırılmalıdır. Dövlət başçısı ziyalılarımızın nəzərinə bir daha çatdırdı ki, xüsusən tarixçilər bu istiqamətdə araşdırmalar aparmalı, Azərbaycan həqiqətlərini əks etdirən tədqiqat əsərləri yazmalı və bu əsərlər xarici dillərə tərcümə edilməlidir.

Qərbi Azərbaycan İcması az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq qəbul etdiyi sənədlər xüsusi əhəmiyyət kəsb edir. Bu sənədlər içərisində - indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmalarının təmin edilməsi barədə qəbul edilmiş konsepsiya – Qayıdış Konsepsiyası mühüm yer tutur.

Bu konsepsiyanın birinci bəndində (girişdə) rəsmi olaraq Qərbi Azərbaycan İcmasının əsas məqsədinin Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının bərpası ilə məşğul olduğu önə çəkilməklə bərabər, eyni zamanda indiki Ermənistan ərazisindən zorla deportasiya edilmiş azərbaycanlıların doğma yurdlarına qayıtmaları üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri müəyyən edilir. Burada haqlı olaraq o da bildirilir ki, Qayıdış Konsepsiyası beynəlxalq hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Qayıdış Konsepsiyasında müxtəlif illərdə xalqımızın başına gətirilən müsibətlər: 1918–1921-ci illərdə Azərbaycan torpaqlarının hesabına Ermənistan Respublikasının yaradılması və torpaqlarımızın sonrakı dövrlərdə sovet rəhbərliyi tərəfindən ermənilərə verilməsi, Qərbi Azərbaycandan azərbaycanlıların məcburi köçürülməsi prosesinin 1987-1991-ci illərdə davam etdiyi bir daha vurğulanır. Eyni zamanda Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqların kütləvi şəkildə dağıdılması, yer adlarının dəyişdirilməsi və azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkiliyin həyata keçirilməsi kimi tarixi faktlar Qayıdış Konsepsiyasında öz əksini tapmışdır.

Qərbi Azərbaycana dönüşün sülh yolu ilə təmin olunması qəbul olunmuş Konsepsiyanın ana xəttini təşkil edir. Bunun bariz nümunəsi olaraq 2023-cü il 11 mart tarixində Qərbi Azərbaycan İcmasının Ermənistanın baş nazirinə göndərdiyi məktubda vurğulanır ki, icma üzvləri tarixi ata-baba yurdlarına qayıdış prosesinə sülh yolu ilə nail olmaq əzmindədirlər. İcma üzvləri məktubda vurğulayır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda və digər mühüm beynəlxalq aktlarda geri qayıtmaq hüquqları əsaslandırılmış şəkildə təsbit olunmuşdur. Məktubda azərbaycanlıların öz evlərinə sülh yolu ilə geri qayıtmaq tələblərinin Ermənistanın ərazi bütövlüyü və ya suverenliyinə xələl gətirə bilecək şəkildə qələmə verilməsinin yolverilməz olduğu bildirilir.

Qərbi Azərbaycan İcması siyasi, hüquqi, diplomatik, sosial və mədəni istiqamətlərdə fəaliyyətini davam etdirir. İcma 2023-cü il 16 mart tarixində Fransa Respublikasına çağırış edərək bu ölkə rəhbərliyinin etnik və dini azlıqlara qarşı dözümsüz siyasətindən ciddi narahatlığını ifadə etmişdir.

2023-cü il martın 27-də tarixində Qərbi Azərbaycan İcması UNESCO-nun baş direktoru Odri Azuleyə ünvanladığı məktubda deyilir ki, Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılması insanlığa sığmayan cinayətdir. İcma üzvləri mədəni irsin vəziyyətinin monitorinqi üçün faktaraşdırıcı missiya göndərmələrini xahiş edir. Məktubda o da bildirilir ki, Azərbaycanın mədəni irsinin planlaşdırılmış şəkildə məhv edən Ermənistan hökumətinin məqsədi monoetnik və təkmədəniyyətli məkan yaratmaq olmuşdur.

2023-cü il martın 30-da tarixində Qərbi Azərbaycan İcması Avropa İttifaqının Ermənistandakı missiyasının rəhbəri Markus Ritterin qərəzli və həqiqətə uyğun olmayan bəyanatına cavab olaraq bildirir ki, Avropa İttifaqı, o cümlədən onun Ermənistandakı missiyası insan hüquqları sahəsində tərəfsiz və müfəssəl səyləri ilə Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarına hörmət etməli və bununla da davamlı sülhün əldə olunmasına dəstək verməlidir.

2023-cü il aprelin 15-də Qərbi Azərbaycan İcmasının Ermənistanda Azərbaycan bayrağının yandırılması ilə bağlı bəyanatında deyilir ki, bütün bunlar Azərbaycana qarşı Ermənistan dövləti tərəfindən dəstəklənən və sistemli şəkildə aparılan etnik nifrət siyasətinin və azərbaycanofobiyanın göstəricisidir. Ermənilər xalqlar arasında nifrəti daha da dərinləşdirərək qorxu mühiti yaradıb azərbaycanlıları oraya qayıtmaqdan çəkindirməyə çalışsalar da, öz ata-baba torpaqlarından zorla köçürülmüş azərbaycanlıların doğma yurdlarına qayıtmasının qarşısını heç nə ala bilməz.

İnanırıq ki, fəaliyyət göstərdiyi bu qısa müddət ərzində Qərbi Azərbaycan İcmasının Qərbi azərbaycanlıların hüquqlarının bərpası istiqamətlərində beynəlxalq təşkilatlara ünvanladığı müraciətlər problemin beynəlxalq aləmə çatdırılmasında xüsusi rol oynayacaq. Əminik ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti ilə Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışını təmin edəcəkdir.

**Elxan HÜSEYNOV,**
**Qərbi Azərbaycan İcması Ziyalılar Şurasının sədri, professor**

# Bu gün Türkiyədə prezident və parlament seçkiləri keçirilir

**Məlum olduğu kimi, bu gün qardaş Türkiyədə prezident və 28-ci çağırış parlament seçkiləri keçirilir. Bu, ölkənin həyatında dərin iz qoyacaq mühüm siyasi kampaniyadır.**



Qeyd edək ki, Türkiyə ərazisində 191 mindən çox seçki qutusu qurulacaq. Ölkə daxilində 60 milyon 697 min 843 seçici qeydə alınıb. Onlardan 5 milyona yaxını ilk dəfə səs verənlərdir.

Səsvermə Ankara vaxtı ilə saat 08:00-da başlayacaq və saat 17:00-dək davam edəcək. Yüksək Seçim Qurumunun (MSK) sədri Ahmet Yener ilkin nəticələrin həmin gün elan olunacağını bildirib.

Xarici ölkələrdə yaşayan Türkiyə vətəndaşları aprelin 27-dən mayın 9-dək öz seçimini edib. Ölkə xaricində qeydiyyatdan keçən 3,4 milyon seçicinin 1,7 milyondan çoxu səs verib. Gömrük məntəqələrində isə səsvermə sabah saat 17:00-da başa çatacaq. Ekspertlərin fikrincə, Türkiyədən kənarda yaşayan vətəndaşların əksəriyyəti hakim Ədalət və İnkişaf Partiyasını və Rəcəb Tayyib Ərdoğanı dəstəkləyir. Məhz onların səsi prezident seçkilərində həlledici rol oynaya bilər.

Dövlət başçısı postu uğrunda üç namizəd – hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan, Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu və Ata İttifaqının namizədi Sinan Oğan mübarizə aparırlar. Dördüncü namizəd - Məmləkət Partiyasının sədri Muharrem İncə seçkilərə üç gün qalmış namizədliyini geri götürüb.

Əgər prezident seçkilərinin ilk turunda namizədlərin heç biri 50 faizdən çox səs toplaya bilməsə, mayın 28-də səsvermənin ikinci turu keçiriləcək. Xatırladaq ki, 2018-ci ildə keçirilən seçkilərdə 52,6 faiz səslə Rəcəb Tayyib Ərdoğan qalib gəlmişdi.

Mayın 14-də, həmçinin Türkiyə Böyük Millət Məclisinə 87 seçki dairəsində 600 millət vəkili seçiləcək. Seçkilərdə 24 partiya və 151 müstəqil namizəd iştirak edir.

**"Xalq qəzeti"**

# Gürcüstan seçim qarşısında: balanslı, yaxud qərbpərəst siyasət?!



**Bu gün dünya siyasətinin mətbəxinə az-çox bələd olanlar yaxşı bilirlər ki, beynəlxalq münasibətlərdə hüququn gücü artıq işləmir, əksinə, indi gücün hüququ var. Real gücə, ədalətə söykənməyən demokratiya siyasi ilğımdır. Fransızlar demişkən, "se lya vi", yəni həyat belədir!**

Bəşər övladının güvəndiyi və ya güvənmək istədiyi sivil, demokratik qanunlar kiçik, zəif və gücsüz olanlar üçün bir ümid və təsəlli vasitəsidir. Güclülərin isə öz qanunları, prinsipləri var. Onlar yalnız öz maraq və iddialarından çıxış edirlər. Bu zaman nəinki hüquq, bəşəri, əxlaqi dəyərlər belə unudulur. Bəzən "mühüm" saziş və müqavilələr adi, lüzumsuz bir kağız parçasına çevrilir.

Bir çox ölkələr, eləcə də yaxın qonşumuz olan Gürcüstanın hazırkı hökuməti dünyada "demokratiya oyunu"nun bir dekorasiya olduğunu başa düşərək, xarici siyasətdə real, praqmatik siyasət xətti yürütməyə çalışır. Lakin bu gözəl, əsrarəngiz ölkənin sadə və səxavətli insanlarının bir qismi hələ də yüksək ideallar axtarır, iqtidardan Qərbə sürətlə inteqrasiya yolunu seçməyi tələb edirlər. Fəlsəfədə buna siyasi idealizm deyirlər.

Bir sözlə, Gürcüstanda hökumətin praqmatik siyasi xətt tərəfdarları ilə siyasətdə idealiz axtaranlar arasında barışmaz mübarizə gedir. Gürcüstanda balanslı, praqmatik siyasət xəttini gürcü mənşəli rusiyalı milyarder Bidzina İvanişvilinin qurucusu və faktiki olaraq qeyri-rəsmi rəhbəri olduğu "Gürcü arzusu" partiyası həyata keçirir. Qərb demokratiyası tərəfdarları isə ölkənin üçüncü Prezidenti, hazırda doğma ölkəsində həbsdə olan Mixeil Saakaşvilinin adamları hesab olunur.

Əlbəttə, əlahəzrət zaman kimin haqlı, kimin haqsız olduğunu özü göstərəcək. Fakt budur ki, "Gürcü arzusu" partiyası artıq bir neçə dəfə ölkədə keçirilən seçkilərdə xalqdan mandat alaraq dövləti və hökuməti idarə edir. Rəqibləri hakimiyyəti onun əlindən seçkilər yolu ilə almaq istəyirlər, amma ala bilmirlər. Görünür, müdrik gürcü xalqı hazırkı dönəmdə öz xeyir və çıxarını yaxşı bilir.

Bakı Dövlət Universitetinin professoru, politoloq Aydın İbrahimov bildirdi ki, bu gün Gürcüstanda iqtidar partiyasının formalaşdırdığı hökumət həm Qərblə, həm də Rusiya ilə əlaqələrini gücləndirməyə çalışır və bu zaman balansı gözləyərək, mütəvazi siyasi xətt həyata keçirməyə cəhd edir. Lakin hökumətin Rusiya qarşısında göstərdiyi "reverans" ("təzim" ifadəsini də işlətmək olar) cəmiyyətdə birmənalı qarşılanmır.

Gəlin qonşu ölkədə baş verən real hadisələrə qısa nəzər yetirək. Bu il mayın 10-da Rusiya Prezidenti Vladimir Putin Gürcüstan vətəndaşları üçün viza rejiminin ləğv edilməsi və iki ölkə arasında birbaşa aviaəlaqələrin bərpa olunması barədə fərman imzalayıb. Bu sənədə əsasən, Gürcüstan sakinləri mayın 15-dən etibarən üç ay müddətində heç bir vizaya ehtiyac olmadan Rusiya ərazisində yaşaya və biznes fəaliyyəti ilə məşğul ola bilərlər.

Adi halda xoş məram kimi qəbul edilən bu jest Gürcüstan ictimaiyyətində etirazla qarşılanıb. Bunun əsas səbəbi isə budur ki, 2008-ci ilin avqustunda Rusiya beynəlxalq qanunları pozaraq, Gürcüstanın Cənubi Osetiya və Abxaziya vilayətlərini özünə ilhaq edib. Bundan sonra Gürcüstan MDB-dən çıxıb və şimal qonşusu ilə diplomatik əlaqələrinə son qoyub.

Gürcüstan Prezidenti Salome Zurabişvili dünən Rusiya dövlət başçısının imzaladığı sənədə münasibət bildirərək, bu addımı "təxribat" adlandırıb. Bildirib ki, Rusiya rəsmiləri daxili auditoriyanın gözündə Ukraynada üzləşdikləri ağır məğlubiyyəti bu yolla kompensasiya etməyə çalışırlar. Bu, həmçinin Avropa İttifaqının Rusiya Federasiyasına qarşı tətbiq etdiyi növbəti, 11-ci sanksiyalar paketinə cavabdır.

S.Zurabişvili qeyd edib ki, rəsmi Tbilisi, öz növbəsində Rusiya vətəndaşlarının Gürcüstan ərazisində vizasız 90 gündən çox qalmamaları üçün məhdudiyyətlər tətbiq etməlidir: "Mən hökuməti ortaya birmənalı mövqe qoymağa səsləyirəm. Təcili olaraq Gürcüstanın Təhlükəsizlik Şurasının fövqəladə iclasını çağırmaq və orada ruslar üçün üç aylıq viza rejiminin tətbiqi məsələsini müzakirə etmək lazımdır".

Gürcüstan Prezidenti sonra deyib: "Nə qədər ki, Rusiya təcavüzkar siyasət yürüdür və bizim torpaqlarımızı azad etmir, bizə bu ölkə ilə nə viza rejiminin ləğv edilməsi, nə aviaəlaqələrin bərpa edilməsi lazımdır. Bizim Rusiyanın "hədiyyələrinə" və "hansısa güzəştlərinə" ehtiyacımız yoxdur. Biz Avropadakı dostlarımızın dəstəklədikləri mövqedən geri çəkilməyəcəyik. Bu gün söhbət Gürcüstanın milli ləyaqətinin qorunmasından gedir!"

Gürcüstan parlamentinin "Xalqın xidmətçisi" fraksiyasının rəhbəri David Araxamiya isə Rusiya Prezidentinin həmin fərmanını şərh edərkən bildirib ki, bu gün dünyada özünə hörmət edən heç bir dövlət Rusiya ilə əməkdaşlıq etmir. O, sonra istehza ilə aşağıdakı "tikanlı" sözləri deyib: "Əhsən! Səbirsizliklə larinin (milli valyutanın-red) rublla əvəz olunması xəbərini gözləyirəm. Bizi artıq heç bir şeylə təəccübləndirə bilməzsiniz".

Xatırladaq ki, bu ilin yanvarında hakim "Gürcü arzusu" partiyasının sədri İrakli Kobaxidze Gürcüstan ilə Rusiya arasında birbaşa aviaəlaqələrin bərpa olunmasının mümkünlüyü barədə bəyanat verərkən, ABŞ və Avropa İttifaqı (Aİ) rəsmiləri bundan narahat olduqlarını bildirmiş, belə bir "yanlış addım" atılarsa, rəsmi Tbilisiyə sanksiyalar tətbiq ediləcəyi barədə xəbərdarlıq etmişdilər.

Bu məlumat Gürcüstanla bərabər, Rusiyanın hərbi təcavüzünə məruz qalan Ukrayna rəhbərliyini də qeyzləndirmişdi. Bu ölkənin Xarici İşlər Nazirliyi bunu Rusiyanın "gürcü xalqına qarşı cəzasız qalan cinayətlərinin və ölkə ərazilərinin bir hissəsinin işğalı fonunda "təzim mübadiləsi" adlandırmışdı.

İki gün əvvəl isə Gürcüstanın altı aparıcı müxalifət partiyası hakim "Gürcü arzusu"nun xarici siyasət xəttini kəskin pisləyən birgə bəyanat qəbul ediblər. Yeri gəlmişkən, mətndə "Gürcü arzusu" partiyası qəsdən "Rusiya arzusu" adlandırılıb.

Sənəddə deyilir ki, bəyanatı imzalayan altı aparıcı müxalifət partiyası hazırkı rejimin demokratik yolla dəyişdirilməsi üçün əlindən gələni edəcək. Əks təqdirdə, ölkəni beynəlxalq aləmdən təcrid və suverenliyin itirilməsi təhlükəsi gözləyir. Müxalifət hesab edir ki, "Gürcü arzusu" xalqın Avropaya və Avroatlantikaya inteqrasiya olunmaq arzularını zərbə altına qoyub.

Gürcüstanın baş naziri İrakli Qaribaşvili isə tamamilə başqa cür düşünür. O, əmindir ki, hökumət ölkəni ayaqda qalmaq, xalqın rifahını təmin etmək üçün bütün qonşularla, eləcə də Rusiya ilə sıx iqtisadi əlaqələrini bərpa etməli və bunu genişləndirməlidir. Baş nazirin fikrincə, Gürcüstanın milli maraqları başçılıq etdiyi hökumətdən praqmatik siyasət yürütməyi tələb edir və xalqdan mandat alan hökumət bunu edir.

İ.Qaribaşvili jurnalistlərə müsahibəsində Gürcüstan hakimiyyətindən "demokratik dəyərlərə sədaqət" tələb edən Qərbin rəsmi Tbilisiyə münasibətdə yürütdüyü siyasəti "riyakar" adlandırıb: "Qərb Gürcüstana qarşı siyasətində 2008-ci ildə necə olubsa, bu gün də həmin xətti davam etdirir. Rusiya-Gürcüstan müharibəsindən 15 il ötməsinə baxmayaraq hələ də Aİ tərəfindən Rusiyaya qarşı sanksiyalar tətbiq olunmayıb".

Gürcüstan hökumətinin başçısı soruşur ki, son on ildə Aİ Rusiyadan 2,5 trilyon dollarlıq mal alıb. Təkcə ötən il Avropa Rusiyadan 300 milyard dollar həcmində enerji məhsulları idxal edib. Baş nazir sonra deyib: "Ukraynada müharibə başlayıb, orada çətinliklər yaranıb, bizi də bu münaqişəyə cəlb etmək, şəhərlərimizi bombalamaq, torpaqlarımızı ağır döyüş meydanına çevirmək istəyirlər. Mən qərbli dostlarımda görüşən zaman deyirəm ki, siz bizdən Rusiya ilə ticarəti dayandırmağı tələb edirsiniz. Amma, özünüz bunu etmirsiniz. Bu nə məntiqdir?!"

Bəli, Gürcüstanın ictimai-siyasi həyatında qütbləşmə güclənib. Xüsusilə M.Saakaşvilinin həbsdən azad edilməməsi ilə bağlı kəskin fikir ayrılıqları mövcuddur. Bütün bunlar ölkənin gələcəyi ilə bağlı iki yoldan – balanslı, praqmatik, yaxud qərbpərəst siyasətdən birini seçməyi zəruri edir. Nə qədər ki, Gürcüstan bu dilemmanı həll etməyib, cəmiyyətdə qütbləşmə və narazılıqlar davam edəcək.

**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**



# ABŞ-da defolt barədə nə düşünürlər?

**Bu gün ABŞ-da ehtimal olunan defolt riski ilə bağlı narahatlıqlar səngimir. Mütəxəssislər tərəfindən qısamüddətli və uzunmüddətli defoltun fəsadlarının fərqli olacağı deyilir. Ağ Evin saytında yerləşdirilən materialda da qısamüddətli defoltun ölkə iqtisadiyyatına az təsirlə ötüşəcəyi bildirilir. Uzunmüddətli defolta gəldikdə isə, bu prosesin reallaşacağı halda onun fəsadlarının kifayət qədər ağır olacağı vurğulanır. Belə ki, iqtisadiyyatı çökdürəcək bu cür təhlükəli proses nəticəsində 8 milyon insanın işini itirəcəyi, işsizliyin 5 faiz artacağı və ÜDM-in illik müqayisədə 6,1 faiz azalacağı göstərilir.**

ABŞ Prezidenti Cozef Bayden ehtimal olunan bu prosesin ölkə iqtisadiyyatı üçün dağıdıcı ola biləcəyini vurğulayıb. O, milli borc tavanının artırılması ilə bağlı danışıqların uğursuz olacağı təqdirdə, potensial defoltun ölkə iqtisadiyyatı üçün ağır nəticələrlə müşahidə ediləcəyini söyləyib.

Ağ Ev rəhbəri, həmçinin respublikaçıların nəzarətində olan Nümayəndələr Palatasının lideri Kevin Makkartinin bununla bağlı narahatlığını anladığını da diqqətə çatdırıb. Elə buna görə də Prezident defoltun qarşısını almaq üçün milli borc tavanının qısa müddətə artırılmasının mümkünlüyünü istisna etməyib. Eyni zamanda, Bayden defoltla bağlı üzləşiləcək vəziyyətə baxmayaraq, o, hələ də mayın 19-21-də Xirosimada keçiriləcək G7 sammitində iştirak etmək niyyətində olduğunu bildirib. Bu məqamda qeyd edək ki, bir müddət bundan əvvəl ABŞ Senatının Respublikaçılar Partiyasından olan 43 nəfərlik qrup Vaşinqton administrasiyasını dövlət xərclərini azaltmasa, borc tavanının artırılması ilə bağlı razılığa gəlməyəcəklərini deyib.

Onu da deyək ki, ABŞ prezidenti administrasiyası bu yaxınlarda Konqresi qanuni olaraq 31,4 trilyon dollar səviyyəsində müəyyənləşdirilmiş milli borc tavanını artırmağa çağırıb. Nümayəndələr Palatasına nəzarət edən Respublikaçılar Partiyası isə ənənəvi olaraq borc limitinin artırılmasına şübhə ilə yanaşıb və dövlət xərclərinin azaldılmasının tərəfdarı olduğunu bildirib. Cari ilin yanvar ayında ABŞ Maliyyə Nazirliyi tərəfindən defoltdan qaçmaq üçün borclanma limiti ilə bağlı fövqəladə tədbirlərin tətbiqinə başlanılıb.

Yeri gəlmişkən, ilk dəfə 1917-ci ildə Konqres tərəfindən qəbul edilən tavan, ölkənin borcunun müəyyən bir səviyyəsinə və ya müəyyən bir tarixə çatdıqdan sonra, xəzinədarlığın dövlət fəaliyyətini maliyyələşdirmək üçün yeni dövlət istiqrazları buraxmasına mane olur. Limitin keçilməsi isə o deməkdir ki, federal hökumətin bir çox adi büdcə ödənişlərini reallaşdırmaq, o cümlədən müxtəlif sosial xərcləri ödəmək imkanları təhlükə altındadır. Bundan əlavə, dövlətin borcları və artıq qəbul edilmiş öhdəliklər üzrə faizləri ödəmək qabiliyyəti ciddi şəkildə pozula bilər.

Qeyd edək ki, defolt borclar üzrə faiz və ya əsas məbləğin ödənilməsinə dair öhdəliyin yerinə yetirilə bilinməməsidir. Bu zaman iqtisadi subyekt tərəfindən pul və borc öhdəliklərindən qismən, yaxud tam imtina edilir. Adətən, ağır maliyyə böhranı səbəbindən iqtisadi subyektlər, xüsusilə dövlət defolta əl atır. Aşağı inkişaf səviyyəli ölkələr fiskal imkanların məhdudluğu üzündən daxili borc öhdəlikli maliyyə alətlərinin geri alınmasından, eləcə də xarici borc öhdəliklərindən qismən, yaxud tam imtina etmiş olur ki, bu da dövlət borcunun defoltu adlanır. Defoltun texniki, korporativ, suveren kimi növləri fərqləndirilir.

Beləliklə, ABŞ hökuməti defoltdan yayınmaq üçün ənənəvi üsula əl ataraq borc limiti tavanının növbəti dəfə yüksəldilməsi təklifi ilə çıxış edir. Maliyyə Nazirliyi bəyan edir ki, borclanma limitləri genişləndirilməsə, ölkənin dövlət borc limitini yay aylarında genişləndirməsi mümkünsüz ola bilər. Anons edilir ki, qanunverici hakimiyyət bəhs olunan tavanı artırmayacağı təqdirdə hökumət digər öhdəliklərini də yerinə yetirmək imkanından məhrum qalacaq. ABŞ prezidenti C. Bayden bildirib ki, ölkənin dövlət borcu son 200 ildə yığılıb. Dövlət başçısı ABŞ-ın defoltunun fəlakət olacağını söyləyib. Bayden hesab edir ki, hadisələrin bu cür inkişafının qarşısını almaq üçün Konqres heç bir şərt olmadan dövlət borcunun tavanının artırılmasını təsdiq etməlidir.

Bu narahatlıq doğuran məsələ ilə bağlı ABŞ-ın maliyyə naziri Janet Yellen isə mediaya müsahibəsində "ABŞ Xəzinədarlığının defolt olmasının mümkün vaxtı, o cümlədən əvvəllər elan edilmiş iyunun 1-i ilə bağlı tarix qeyri-müəyyən olaraq qalır", – deyib. O, eyni zamanda, iyunun əvvəlində pulun tükənəcəyinin də proqnozlaşdırıldığını, bunun iyunun 1-də baş verməsi ehtimalının mövcudluğunu diqqətə çatdırıb.

Bir sözlə, ABŞ-da gözlənilən defolt riski xarici borc öhdəliyi limitinin keçilməsi ilə bağlıdır. Ölkədə xarici borc öhdəliyi limitinin cari ilin yanvarında keçildiyi bildirilir. Artıq ölkənin xarici borcu 31,4 milyard dollardan çoxdur ki, bu da "qırmızı xətt" sayılır. Həmçinin dövlət büdcəsinin kəsiri də artmaqda davam edir. Büdcə kəsirinin 2024-cü ildən 2033-cü ilə qədər ildə təxminən 2 trilyon dollar olacağı proqnozlaşdırılır. Bildirilir ki, kəsir 2033-cü ilə qədər 2,851 trilyon dollara və ya ÜDM-in 7,3 faizə çatacaq.

Ekspertlərin məlumatlarına görə, 2023-cü maliyyə ili üçün büdcə kəsiri 1,410 trilyon dollar səviyyəsində proqnozlaşdırılır ki, bu da 2022-ci ilin göstəricilərini üstələyir. Boşluq ABŞ prezidenti Cozef Baydenin tələbə borclarını silmək planlarına görə genişlənib. Daha əvvəl "American Greatness" yazıb ki, indiyə qədər 31,5 trilyon dolları keçmiş ABŞ dövlət borcunun artan həcmi yaxın gələcəkdə ölkənin federal büdcəsinin tamamilə çökməsinə səbəb ola bilər.

Ekspertlərin sözlərinə görə, dünyanın supergüc dövləti sayılan ABŞ-ın defolt təhlükəsi ilə üzləşməsini ilk baxışda təsəvvür etmək belə çətindir. Ancaq ölkənin iqtisadi potensialı hər nə qədər güclü olsa da, burada defoltu şərtləndirən şərait yaranıb. Bununla bağlı ABŞ-dan gələn xəbərlərdə, hətta ölkənin ehtimal olunan defoltla üzləşəcəyi tarix də açıqlanır. Bunun cəmi bir neçə aydan sonra - 2023-cü ilin iyul-sentyabr aylarında baş verə biləcəyi əsaslandırılır.

Dünyanın ən böyük iqtisadiyyatı olan ABŞ öz tarixində ilk dəfə real defolt riski ilə 2021-ci ilin payızında üzləşib. Həmin dövrdə Konqresin Nümayəndələr Palatası hökumətin borclanmasına dair həddin götürülməsi üzrə qanun layihəsinin lehinə səs verib (219-un 212-nə səs çoxluğu ilə).

Bu və digər tədbirlər ABŞ-ın öz maliyyə öhdəliklərini vaxtında yerinə yetirə bilməsi üçün 2022-ci ilin dekabrına qədər hər hansı yuxarı hədd olmadan əlavə borc cəlb etməsinə imkan yaradıb. Ümumiyyətlə, ABŞ Konqresi 1960-cı ildən bəri 78 dəfə borc limitinin götürülməsinə dair qanun layihələri qəbul edib. Sonuncu belə hal 2019-cu ildə baş verib. Ən dramatik vəziyyətlərdən biri isə 2011-ci ildə yaranıb və "Standard&Poors" reytinq agentliyi tarixdə ilk dəfə ABŞ-ın kredit reytinqini aşağı salıb.

**"Xalq qəzeti"**

**Azərbaycan kinosu – 125**

# Azərbaycan kinosu: reallıqlar, çağırışlar, hədəflər

**Mövcud çətinliklərə və problemlərə rəğmən Azərbaycan kinosu yaşayır. Kinoforumdan sonra gəldiyim qənaət və gələcəyinə inandığım həqiqət budur. Dünya və tarix daima yüksələn inkişaf xətti ilə irəliləmədiyi kimi, kino sferası, o cümlədən Azərbaycan kinosunun da həyat yolu hər zaman hamar və hamının maraqlarını təmin edən tərzdə olmamışdır. Amma nə yaxşı ki, sənətə, bədii əməyə və onun daşıyıcılarına qiymət verən insanlar və dövlətimiz var...**



Azərbaycan mədəniyyətinin zəngin ədəbi-bədii nümunələri, bəşəri dəyərlər daşıyan əsərləri insanlığın sənət xəzinəsinə töhfə verməklə tarixdə özünəməxsus iz buraxıb. Mədəniyyətimizin əsas qolları olan milli musiqi, rəssamlıq, teatr və kinematoqraf illər boyu ümumbəşəri ideyaları tərənnüm etmişdir.

Tarixə nəzər salsaq milli kinematoqrafiyanın keçib gəldiyi yolun heç də hamar olmadığını görərik. Mən kinematoqrafiyamızın ötən əsrin ikinci yarısındakı vəziyyətinə nəzər salmaq istərdim. Çünki, məhz həmin dövrdə baş verən proseslər XX əsrdə müstəqil Azərbaycan kinematoqrafiyasının varolma əsaslarını müəyyənləşdirdi.

Belə ki, Azərbaycanda kinematoqrafiyanın vəziyyəti II Dünya müharibəsindən sonra müəyyən durğunluq dövrünü yaşadı. Mövzuların, hətta kadrların Moskvadan təyin olunması Azərbaycan milli kinosunun inkişafına ciddi əngəllər törədirdi. Bakı kinostudiyasının qonşu respublikalardan birinin tabeliyinə verilərək filial kimi fəaliyyət göstərməsi haqqında Moskvada məxfi şəkildə qərar hazırlanırdı. Azərbaycanın bədnam qonşularının Sov. İKP Mərkəzi Komitəsində və Siyasi Bürodakı yüksək vəzifəli təmsilçilərinin və onların havadarlarının müdaxiləsi sayəsində bu işə zəmin hazırlanırdı. O vaxt Azərbaycanın siyasi rəhbərliyində Heydər Əliyevin yüksək vəzifə tutması bu təhlükənin qarşısını aldı. Belə ki, Mehdi Hüseynzadənin reabilitasiya olunması və Sovet İttifaqı Qəhrəmanı adını almasında təşəbbüs ulu öndər Heydər Əliyevə məxsusdur. Məhz onun səyləri ilə arxiv materialları araşdırıldı və Moskvada aidiyyəti orqanlara tutarlı faktlarla Mehdi Hüseynzadənin qəhrəmanlığı sübut olundu. İ.Qasımov və H.Seyidbəylinin müəllifi olduğu "Uzaq sahillərdə" romanı da onun təşəbbüsü ilə yazıldı. Daha sonra Tofiq Tağızadənin quruluşçu-rejissorluğu ilə eyni adlı filmin çəkilişləri də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə baş tutdu. Bakı kinostudiyasında çəkilişə başlanan "Uzaq sahillərdə" filmi 1958-ci ildə uğurla tamamlandı. Bundan sonra Bakı kinostudiyası 1959-cu ildən "Azərbaycanfilm" kimi fəaliyyətini davam etdirdi. Bununla da "Azərbaycanfilm"in qonşu respublikalardan birinin filialı olmaq kimi təhqiredici bir faktın qarşısı alındı! Azərbaycan kino tarixində renessans mərhələsi kimi yadda qalan bir neçə uğurlu filmin ərsəyə gəlməsi məhz ulu öndərin çox məharətlə inşa etdiyi milli özünüdərkə xidmət edən sistemdə, onun özünün də şəxsən irəli sürdüyü təşəbbüs və qərarlar ilə bağlıdır. Azərbaycan xalqının maddi-mədəni irsinə, tarixinə sahib çıxması, müstəqil bir xalq kimi milli-mədəni mühitdə yaşayıb inkişaf etməsi üçün ulu öndər əvəzolunmaz xidmətlər göstərmişdir.

Onun uzaq perspektivə hədəflənmiş və əsasında Milli İnkişaf Konsepsiyası duran fəaliyyətinin Azərbaycanın XX əsr tarixinin bütün sahələrində – siyasət, iqtisadiyyat, mədəniyyət, elm, ideologiyada bariz nümunələrlə zəngin olduğunu bu gün daha parlaq şəkildə görürük.

Ulu öndərin miras qoyduğu siyasi, mədəni kursunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyev qloballaşan dünyanın çağırışlarına Vətən sevgisi aşılayan qürurverici fəaliyyəti və Azərbaycan dövlətçiliyini yeni inkişaf səviyyəsinə qaldırması ilə cavab verdi.



Azərbaycançılıq, müasirlik, tolerantlıq, multikulturalizm kimi dəyərlərimizi qorumaq və gələcək nəsillərə ötürməyin əhəmiyyətini zaman-zaman xatırladan Prezident İlham Əliyev, əslində, xalqı bu dəyərlər ətrafında birləşdirməyə və həmin dəyərlərin cəmiyyətin bütün fəaliyyət və yaradıcılıq sahələrində əsas meyar kimi tətbiq edilməsinə nail oldu.

Müasir, "sərhədsiz" dünyada müxtəlif "ideyalar" bir-birini tez-tez əvəz edir, çeşidli resurslar vasitəsilə müstəqilliyinin bəhrəsini dadmağa imkan tapmamış ölkələrə asanlıqla daxil olur. Məsələn, natamamlıq psixologiyası, öz xalqının əxlaqi keyfiyyətlərinə, tarixinə, ictimai-şüurunun sınaqdan çıxmış formalarına yuxarıdan aşağı baxmaq kimi tendensiyalara köklənmiş mesajlar maraqlı güclər tərəfindən dəstəklənməkdədir. İdeoloji-mənəvi-əxlaqi sferada boşluq yaranan kimi onun yerini mürtəce, separatçı, aqressiv, humanizmdən uzaq müxtəlif növ meyillər, hətta dini-siyasi sapmalar doldurmağa başlayır. Heç şübhəsiz ki, bu ideyaların sürətlə sapmalara məruz qaldığı sahələrdən biri də kinematoqrafiyadır.

Birinci və hələlik sonuncu Kinoforum Azərbaycan kinosunun mövcud vəziyyətini şəffaf şəkildə müzakirəyə çıxardı. Kinoforumun gedişatı onu göstərdi ki, onun təşkilatçısı olan ölkəmizin Mədəniyyət Nazirliyi üçün bu sferada qapalı saxlanacaq kiçik bir detal belə yoxdur. Bu isə çox vacib idi. Hər hansı bir xəstəliyin müalicəsi düzgün qoyulan diaqnozdan asılıdır.

Dörd paneldə müzakirəyə qoyulan mövzular geniş əhatəli şəkildə imkan verdi ki, çıxışçılar sərbəst şəkildə diskussiya aparsınlar, fikir bildirsinlər. Müzakirələr çox aydın şəkildə Azərbaycan kino sənayesinin təxirəsalınmaz həllini gözləyən istiqamətlərini müəyyənləşdirdi. Əsas ana istiqamət xətti isə bunlar oldu: mədəniyyətimizin ideoloji əsasları olan azərbaycançılıq, tolerantlıq, mültikulturalizm, maddi-mədəni irsimizə sadiqlik! İştirakçıların əksəriyyətinin səsləndirdiyi ana fikirlərin ortaq nöqtəsi də həmin ideyaların Azərbaycan kino incəsənətində daha əhatəli, geniş həcmdə əks edilməsi istəyi oldu.

Azərbaycan kinosu ancaq daxili lokal məkanda fəaliyyət göstərə bilməz. Kinematoqrafın vacib cəhətlərindən biri də sərhədləri aşıb mədəni-kulturoloji ixrac potensialına malik olmasıdır. Düşünürəm ki, kinematoqrafiyamız "Yumşaq güc" olmaq potensialına malikdir və yaxın perspektivdə yerləşdiyimiz coğrafiyada mədəni-əxlaqi dəyərlərimizi tanıtmağa və sevdirməyə malik olacaqdır. Bu prosesi uğurla tətbiq etmək üçün yüksək professionallıq, savad, müasir dünya kinosunda gedən proseslərdən xəbərdar olmaq, ən əsası öz xalqının tarixini, mədəniyyətini bilən və sevən peşəkarlar tələb olunur. Özfəaliyyət səviyyəsində, qeyri-professional yanaşma bu prosesi iflasa uğradacaq. Yuxarıda sadaladığımız mənəvi-əxlaqı keyfiyyətlərin təbliği xalqımıza rəğbət formalaşdırması üçün vacib şərtlərdən biridir. Beynəlxalq kinofestivallarda və film fondlarında iştirak etməklə bu prosesi beynəlmiləlləşdirmiş oluruq.

Kinoforumda səslənən fikirlərin təhlili Pitçinq (layihələrin təqdimatı) prosesinin kinomuz üçün nə qədər vacib olduğunu diqqət mərkəzinə gətirir. Son illər Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində Ekspert Şurası, Bədii Şura və sairə kimi müxtəlif adlarla psevdo-pitçinq kimi müsabiqələr keçirilmişdir. Pitçinq isə dəqiq format və reqlament tələb edir. Belə olmasa bu gün Azərbaycan kinosundakı kimi bir nəticə ilə qarşılaşırıq. Pitçinq formatının peşəkar səviyyədə tətbiqi prodüser, distribüter kimi kino səneyesinin vacib sahələrinin formalaşması üçün platfoma rolunu oynaya bilər. Digər tərəfdən, gələcək filmin çəkiliş prosesinə peşəkar səviyyədə nəzarəti də təmin etmiş olacaqdır. Əsas diqqəti dövlət büdcəsindən maliyyə dəstəyi almaq arzusunda olan kinolayihələrin seçilməsi üzərinə yönəltməyin əhəmiyyətini qeyd etmək istərdim.

**Şamil ƏLİYEV,**
**kinorejissor və ssenarist**

## KİNOFORUMA SÖZARDI

Kinoforum kino sektorunda yaranmış problemlərin tam təsnifatını müəyyənləşdirməsə də, əsas istiqamətləri araşdırmağa meyilli olan çıxışlara və suallara meydan verib cavab ala bildi. Əslində, kino sektorunda çoxsaylı, illərlə yığılıb qalmış problemlərin həll olunmaması, bu proseslərin davamlı şəkildə daha geniş və peşəkar müzakirələrə ehtiyacı olduğunu ortaya çıxardı.

Kinoforum problemlərin həlli yollarını axtarmaq üçün fikirlərin, mövqelərin müzakirəsi, dərdlərin bölüşülməsi istiqamətində irəliyə doğru atılan bir addım oldu. Bu mənada dövlətimizin mədəniyyət siyasətini idarə edən şəxslər və strukturlar milli kino sənayesinin bir çox məsələlərindən agah oldular və sektorun əsas iştirakçılarının potensialına yenidən qiymət vermək imkanı əldə etdilər. Fikrimcə, bu məqam yol xəritəsinin formalaşdırılması üçün çox vacib amil olmalıdır.

Son 20 ildə – keçmiş Sovet respublikaları ilə Azərbaycandakı kino sferasını müqayisə edəndə ölkəmizdə ürəkaçan məqamların az olduğunu görərik. Bu kino sənayesinin qurulması üçün təxirəsalınmaz istiqamətlərdə, daha dəqiq desək, struktur formalaşmasında aydın görünür. Məsələn, Beynəlxalq kino fondlarında müştərək layihələrin təmsil olunmaması, EUROIMAGE üzvlüyünə hələ də qəbul olunmamağımız, Azərbaycanda Beynəlxalq səviyyəli (FIAPF-da qeydiyyatdan keçmiş) film festivallarının olmaması, Kino Agentliyinin bu vaxta qədər fəaliyyətə başlamaması, kino yayımında və dublyajda problemlərin mövcudluğu, prodüser və distribüter institutlarının beynəlxalq səviyyədə zəif təmsil olunması qonşu ölkələrlə müqayisədə kinomuzun geri qalmasını aşkara çıxarır. Məhz buna görə gecikmədən kino sektorunun inkişafının yol xəritəsi hazırlanaraq Kino Agentliyinin icrasına təqdim olunmalıdır.

Kino Agentliyi mütləq peşəkar, ali savadlı kadrlardan təşkil edilməlidir. Fikrimizcə, Azərbaycan kino tarixində müstəsna rol oynamış "Azərbaycanfilm" Kino Mərkəzi kimi fəaliyyət göstərməli, çəkiliş pavilyonları müasir kino sənayesinin tələblərinə uyğun yenidən qurulub istifadəyə verilməli, müxtəlif yaradıcılıq birliklərinin fəaliyyətini bu mərkəzdə cəmləşdirməklə rentabelli bir təşkilata çevrilməlidir.

Dövlətin təsis edəcəyi Kinofond çərçivəsində ayırdığı maliyyənin bölüşdürülməsi şəffaf müsabiqələrlə, Pitçinqlə müəyyən olunaraq müxtəlif studiyalar arasında paylanmalıdır. Hər hansı bir layihə 100 faiz dövlət tərəfindən maliyyələşdirilməməlidir. Müxtəlif studiyalar ("Azərbaycanfilm" də daxil olmaqla) bu müsabiqələrdə iştirak etməlidirlər. Belə olan təqdirdə dövlətdən tam asılılıq vərdişindən uzaqlaşarıq, prodüser isə layihənin sahibi kimi fəaliyyət göstərmiş olar.

Dövlət kino sferasına ilkin mərhələdə kino sənayesinin qurulması üçün müəyyən maliyyə vəsaiti ayırmalı və bu prosesi çox ciddi nəzarətdə saxlamalıdır. Dövlətin özəl sektora müsabiqələr, tenderlər vasitəsi ilə sifarişlər verməsi praktikasını reallaşdırmağın nə qədər vacib olması mübahisə doğurmamalıdır.

Yerli investorların davamlı olaraq kino sektoruna maliyyə yatırımını təmin etmək üçün vergi qanunlarında müəyyən güzəştli şərtlərin olmasını təmin etmək lazımdır. Azərbaycanda kifayət qədər investor mövcuddur ki, belə şərtlər daxilində yatırım etməyə hazırdır. Kino sferasında artıq mövcud olan özəl sektorun fəaliyyəti bunu deməyə əsas verir.

Kino sektorunda müəlliflər heyətində mütəxəssis problemi olmasa da, köməkçi sahələrdə (I asistent, qrim rəssamı, geyim üzrə rəssam, rəssam-arxitektor, pirotexnik, kaskadyorlar) böyük çatışmazlıqlar vardır. Bu gün istehsalata, eyni zamanda, 10 tammetrajlı film buraxılsa, bu, daha kəskin şəkildə özünü göstərəcək. Bu isə kino sənayesinin vacib tələblərindəndir. Məhz bu nöqteyi-nəzərdən Mədəniyyət və İncəsənət Universitenin nəzdində (Kino Agentliyinin tabeliyində də ola bilər) daha geniş imtiyazlara malik Ali Kino İnstitutunun yaradılması da aktual görünür.

Həyatı və insan yaşayışını maraqlı edən onu bezdiricilik sindromundan qurtaran müxtəlifllikdir. Zövqlərin, tələbatın, istəklərin müxtəlifliyi, bu rəngarəngliyi tanımaq, öyrənmək insana həyatı sevdirir. Müasir Azərbaycan kinosu da müxtəlif janr və istiqamətlər üzrə həyatımızın çeşidli tərəflərini maraqlı hekayələrlə bədii-vizual əsərlər halına gətirərək, tariximizin bir hissəsinə çevrilməkdədir. Amma müxtəliflik bədii dəyər ifadə etmədikdə kino çəkmək üçün çəkilən zəhmət də, sərf olunan zaman da insana təəssüf hissindən başqa bir hiss yaşatmır. Tamaşaçılar isə Azərbaycan kinosunu seyr edib qürur hissləri ilə yaşamaq istəyirlər...



# "Ulduz" jurnalının ulu öndərə həsr olunmuş xüsusi buraxılışı

**"Ulduz" jurnalının builki aprel sayı ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.**

Ulu öndər milli-mənəvi dəyərlər sistemimizə dərin bağlılığını belə ifadə etmişdi: "Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla daim fəxr etmişəm". Ədəbi gəncliyin populyar sənət dərgisinin yaradıcı heyəti ümummilli liderin bu yüksək münasibətini xüsusi buraxılışda geniş cavablandırıb.

"Ədəbiyyat qəzeti" və "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin ortaq layihəsi əsasında hazırlanmış buraxılış Xalq yazıçısı Anarın "Qalib gəldi, qalib getdi" sərlövhəli məqaləsi ilə açılır. Yazı müəllifin ulu öndərlə bağlı düşüncələrini, xatirələrini və unudulmaz ədəbi görüşləri ehtiva edən mülahizələrini əhatə edir. Xalq yazıçısı Elçinin "Dünya axirət əkini", filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlının "Ədəbiyyata həyatdan gələn qəhrəman", eləcə də professor Mahirə Nağıqızının "Ulu öndər Heydər Əliyev və natiqlik sənəti" yazılarında Heydər Əliyev şəxsiyyətinin ali məqamlarına nəzər yetirilib.

Ədəbiyyatşünas Yaşar Qarayevin "Müstəqillik dövrünün milli öndəri", akademiklər İsa Həbibbəylinin "Heydər Əliyevin böyük ədəbiyyat siyasəti", Nizami Cəfərovun "Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşmasında Heydər Əliyev fenomeni", Xalq yazıçısı Kamal Abdullanın "Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisi kimi", şair-publisist, "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəsin "Heydər Əliyev və müasir ədəbiyyat", filologiya üzrə elmlər doktoru Pərvanə Bəkirqızının "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", professor Qəzənfər Paşayevin "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" məqalələrində ümummilli lider Heydər Əliyevin




ədəbiyyatımızın, incəsənətimizin tərəqqisinə bəxş etdiyi əvəzsiz töhfələrdən söz açılır, milli – mənəvi dəyərlərimizin qorunması yolunda yorulmaz fəaliyyətinə nəzər salınır.

"Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turanın "Heydər Əliyev barədə yazılmış ilk poetik mətn" məqaləsi Güney Azərbaycanın böyük şairi Bulud Qaraçorlu Səhəndin "Elimin dayağı, yurdumun fəxri" şeiri ətrafında qeyd və mülahizələri özündə ehtiva edir. YAP-ın idarə heyətinin üzvü, filologiya elmləri doktoru Elnarə Akimovanın "Ədəbi yaddaşımızın Heydər Əliyev məqamı" müsahibəsində Xalq şairi Nəriman Həsənzadənin Heydər Əliyevlə bağlı xatirə və düşüncələri ifadə olunub.

"Heydər Əliyevin gücü, yaxud özünəqayıdışın Cavid intibahı" yazısında, adından da göründüyü kimi, Hüseyn Cavid ədəbi irsinə, eləcə də ədibin ailəsinə Heydər Əliyevin diqqət və qayğısından söhbət açılır. "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin baş direktoru Tural Axundovun "Ulu öndərin xeyir-duası" yazısı Heydər Əliyevin nəşriyyat və poliqrafiya sahəsinin inkişafı yolunda göstərdiyi fəaliyyətə işıq tutur. Filologiya üzrə fəlsəfə doktoru Aslan Salmansoyun "Heydər Əliyev və Səməd Vurğun ocağı" məqaləsi Heydər Əliyevin Xalq şairi Səməd Vurğunun ailəsinə göstərdiyi dərin ehtiramın tarixçəsidir.

Dərgidə son olaraq yazıçı Xeyrəddin Qocanın "Heydər Əliyevlə görüşlər, söhbətlər" xatirə yazısı təqdim edilib. Qeyd edək ki, xüsusi buraxılışda ulu öndərin kəlamları və ona həsr edilmiş şeirlərlə yanaşı, dahi şəxsiyyət haqqında ölkə xaricində çap edilmiş kitablardan seçmə fikirlər də yer alıb.

**T.RÜSTƏMLİ,**
**"Xalq qəzeti"**

# Sağlam gələcəyin təməli – düzgün qidalanma

**Düzgün qidalanma sağlamlığın əsas şərtlərindən biridir. Bu şərtə əməl edilməyəndə orqanizmdə maddələr mübadiləsi pozulur və xəstəliklərin əksəriyyəti bu səbəbdən yaranır. Düzgün qidalanma sağlam gələcəyin təməlidir. Azərbaycan Tibb Universitetinin müəllimi, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü Aidə BƏNDƏLİYEVA ilə söhbətimiz də məhz bu barədədir. Həmsöhbətim öncə son illərdə ölkəmizdə qida təhlükəsizliyinə nəzarət işini təkmilləşdirmək, şəffaflığı artırmaq, müvafiq qaydalara əməl olunmasını təmin etmək məqsədilə görülən işlərdən söz açdı:**



– Bu gün dünyanın bütün sivil ölkələrində olduğu kimi, Azərbaycanda da qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində istehsalın bütün mərhələlərinə nəzarət həyata keçirilir. Bu baxımdan sağlam nəslin düzgün formalaşması üçün onların necə qidalanması məsələsi gündəmə gəlir. Düzgün qidalanma həyat keyfiyyətini – sağlamlığı, əhval-ruhiyyəni, əmək qabiliyyətini, maddələr mübadiləsini, bu və ya digər orqan və sistemlərin dolğun fəaliyyətini təmin edir, bir sıra qeyri-infeksion xəstəliklərin (QİX) və halların qarşısını almağa imkan yaradır.

Hippokrat deyirdi: "Sən nə yeyirsənsə osan". "Yeməyiniz dərmanınızdır, dərmanınız yeməkdir". Böyük alim İbn Sina isti vanna, bədəni yağla silmək, yüngül hərəkətlər, gəzinti, at minmək, qiraət, südlü (xüsusilə keçi və at südü), bitki mənşəli qida rasionu, qırmızı şərab, bağırsaqları yumşaldan maddələr və sakit həyat tərzini ömrü uzadan vasitələr hesab edirdi. Serblər uzunömürlülüyün sirlərini yumurta sarısı, çolpa əti, toyuq bulyonu yeməkdə, abxazlar enliyarpaqlı bitkilər, yabanı bitkilərin xörəkləri, az enerjili qida, otların, itburnunun dəmləmələrini qəbul etməkdə görürdülər. Leonardo da Vinçi kalsiumun rasionda çoxluğunun qocalmaya səbəb olduğunu deyirdi.

***– Bəs düzgün qidalanma necə olmalıdır?***

– Təcrübə göstərir ki, qidalanma zamanı heç bir prinsipi gözləməmək ən çox yol verilən səhvlərdən biridir. Sağlam yaşamağın açarı, ilk növbədə, insanın nə dərəcədə sağlam qidalanmasındadır. Gün ərzində yediyimiz qidalar orqanizmin gündəlik ehtiyacı olduğu vitamin və mineralları ödəməlidir. Hər bir şeyin ölçüdən artıq qəbul edilməsi, təbii ki, xoşagəlməz halların yaranmasına səbəb ola bilər. Əhali daha çox yüksək enerji tutumlu qida məhsulları, doymuş yağlar, şəkər və ya duzdan istifadə edir, meyvə, tərəvəz və dənli bitkilərə qidada yetərincə yer vermir. Qida rasionunda və həyat tərzindəki bu dəyişikliklər inkişaf etmiş ölkələrdə məhz xroniki qeyri-infeksion xəstəliklərin (piylənmə, şəkərli diabet, ürək-damar xəstəlikləri, yüksək qan təzyiqi və insultlar, xərçəngin bəzi növləri) insanın əmək qabiliyyətini itirməsinə və vaxtından əvvəl ölümlərə gətirib çıxaran əsas səbəblərdəndir.

Qəbul etdiyiniz qidalar çoxçeşidli olmalıdır. Hər gün eyni qidanı yemək insanın yeməkdən aldığı həzzi və iştahını öldürür, həm də qidalanma vərdişinə qarşı mənfi təsir göstərir. Son nəticədə zərər görən yenə də orqanizm olur. İnsan fərqli təamları dadmağa vərdiş etməlidir. Müxtəlif çeşidli meyvə və tərəvəzdən, ət və ət məhsullarından, süd və süd məhsullarından fərqli şəkildə istifadə etmək insanın daha nikbin və sağlam yaşamasına kömək edir. Qarşıdan hər şeyin bol olduğu yay fəsli gəlir. Ona görə də bu bolluqdan orqanizmin xeyrinə daha çox istifadə etmək lazımdır. Çox yeməyə can atmaq lazım deyil, çünki çox yemək orqanizm üçün lüzumsuz və səmərəsiz əlavə zəhmət və ağır yükdür.

***– Karbohidratlar və minerallar hansı nisbətdə qəbul edilməlidir?***

– Orqanizmimizin hüceyrələrinin normal fəaliyyət göstərməsi üçün düzgün nisbətdə qəbul edilən karbohidrat, yağ, protein, vitamin və minerallarla zəngin qidalanmadır. Orqanizmə vaxtaşırı istirahət vermək lazımdır, çünki bağırsağın divarları özündə 3 kiloqramdan 25 kiloqramadək şlak toplayıb saxlayır. Qidanın enerji dəyəri baxımından qida qəbuluna görə bölünməsi: səhər yeməyi–25 faiz, günorta yeməyi–35 faiz, aralıq nahar–15 faiz, şam yeməyi – 25 faiz olmalıdır. Qidanın energetik dəyəri 2400 – 2500 kkal arasında olur ki, bunun da təxminən 1200 –1400 kkal karbohidratların, 720 – 810 kkal yağların, 400–460 kkal zülalların hesabına təmin edilməlidir. Mülayim məhdudlaşdırılmış rasionda orta hesabla sutkalıq norma: zülal 70 – 80 qram, yağ 80 – 90 qram, karbohidrat 300–350 qram qəbul olunur. Heyvani mənşəli zülalların miqdarı sutkalıq normanın 50 faizindən az olmamalıdır. Bu miqdarın yarısını isə süd zülalı təşkil etməlidir. Rasiondakı yağın 1/4 hissəsi kərə yağı, 1/4 hissəsi bitki yağı, 3–4-cü hissələri isə yeyinti məhsullarının özündə olan yağlar və kulinariya məqsədilə istifadə olunan mətbəx yağları (marqarin) olmalıdır. Şəkər karbohidratların 15 faizini təşkil etməlidir. Karbohidratların azı 25 faizi kartof, tərəvəz və meyvələrin şəkəri hesabına ödənilməlidir (təxminən 80–100 qram). Eləcə də, sutkada 2 qram üzvi turşular və 25 qram qida lifləri qəbul olunmalıdır.



Həftəlik yemək rasionuna daha çox daxil edilən və orqanizmi zəhərləyən ət, yağ, yumurta, göbələk, pendir, çörək və paxlalı bitkiləri qidadan çıxara bilmədikdə onları tərəvəzlərə əlavə kimi qəbul etmək lazımdır. Sağlamlığımız üçün əlimizdən gələni edə biləcəyimiz ən əhəmiyyətli addımlardan biri, emal və qablaşdırılan əlavə məhsullardan, rafinə olunmuş qidalardan, qızartmalardan, çox yağlı qidalardan, qazlı şirin sulardan mümkün qədər az istifadə edilməsidir.

***– Qidalanma tərzindən danışardınız... Kim daha çox və ya kim daha az qida qəbul etməlidir?***

– Sağlam qidalanmanın əsas şərtləri keyfiyyətli və ekoloji təmiz məhsullarla qidalanmaqla yanaşı, həmçinin qidalanma rejimi və tərzinə düzgün riayət edilməsidir. Həzm sistemi bədənimizin əsas qida maddələrini mənimsəməsinə kömək etməklə yanaşı, həm də ifrazat sistemi ilə birbaşa əlaqə qurur. Yeməyi ayaq üstə, tələsə-tələsə və sürətlə yemək həzm problemlərinə səbəb ola bilir. Ona görə yeməyi oturub yemək lazımdır.

Qidalanma tərzində əsas yerlərdən birini qidanın düzgün çeynənməsi tutur. Qidaları mümkün qədər çox çeynəyəndə və ağız şirəsi ilə isladanda orqanizm həzmolma prosesinə az enerji sərf edir. Çünki qidanı çox çeynədikdə həm qidalanma vaxtı uzanır, həm də qida çox parçalandığı üçün rahat həzm olunur. Soyuq maye və soyuq xörək mədədə enzimlərin fəaliyyətini zəiflədir. Normal hərarətə çatana qədər mədə enzim ifraz etmədiyinə görə divarı zədələnir. Çox isti çay içmək və çox isti xörək yemək enzimlərin ifrazını dayandırır, mədənin zədələnməsinə səbəb olur.

Düzgün qidalanma qaydasında onikibarmaq bağırsaqda qidaları sağlam həzm olunan hər kəs sağlam və gümrah yaşayır, mənən və ruhən güclü olur. Tələsə-tələsə yemək həzm sisteminin işinə mənfi təsir göstərir. Çünki doyma refleksi mədədə deyil, beyindədir. Yeməyin miqdarını artırdıqda mədə müəyyən fasilələrlə işləyir və doyma refleksi erkən yarandığından yeyilən qida kökəlməyə səbəb olur. Qidanın çəkisini 1,5–2 dəfə azaltmaqla daha çox fayda görmək olar. Gün boyunca qida qəbulu hissələrə bölünməlidir. Aclıq hissini daha yaxşı idarə etmək və çox yeməmək üçün gündə qidalanma ən az 3–6 paya bölünməli, hər dəfə az-az yeyilməlidir. Yay fəslində günün uzun olması bu payları artıra bilər. Qəbul edilən qidanın kalori miqdarına ciddi fikir verilməlidir. Orqanizm özünə nə qədər kalori götürəcəyini yaxşı bilir. Lazım olduğundan çox qida istehlak etdikdə artıqlar piy şəklində bədəndə toplanır. Həmin ehtiyat həddindən çox olduqda orqanizmdə piylənmə prosesi gedir, müxtəlif xəstəliklər yaranır.

Ümumiyyətlə, hər kəs öz iş rejiminə görə qida qəbul etməlidir. Bütün günü aktiv həyat tərzi sürənlər və daha çox hərəkətdə olanlar, təbii ki, daha çox kalori itirirlər. Oturaq həyat tərzi keçirənlər və həmişə formada olmaq istəyənlər isə hər bir qidanın enerji dəyərini bilməli, planlı şəkildə əməl etməlidir. Zehni əməklə məşğul olan şəxslərin sutkalıq qida rasionlarının tərtibi zamanı qaydalar əsas götürülür. Fiziki iş daha çox qida qəbulu tələb edir. Əgər yeniyetmənin boy və bədən çəkisində sürətli artım varsa, qidanın miqdarı artırılmalıdır. Qida rejiminə riayət etmədən balanslama mümkün deyil. Say etibarilə gün ərzində dörd dəfə yemək orqanizmin fizioloji strukturu baxımından daha münasib hesab edilir. Şam yeməyi yatmazdan ən azı 2 saat əvvəl məsləhət görülür.

***Müsahibəni qələmə aldı:***
***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

**Yaddaşlarda yaşayanlar**

**Əslində, "Yaddaşlarda yaşayanlar" rubrikasının bu həftəki yazısını başqa bir qələm sahibimizə həsr eləmək istəyirdim. Ancaq mayın 7-də Bakıətrafı kəndlərdən birində həyətdəki ağaclara qulluq məqsədilə ot biçən adama az da olsa kömək elədim və dəryazın səsi, biçilmiş otun ətrafa yayılan qoxusu mərhum şairimiz Fikrət Sadıqdan oxuduğum misraları yadıma saldı.**

# Mən yenə ot biçdim, Fikrət müəllim

## Bağban, mənə gəncliyimi xatırlatdın

Doxsanıncı illərin yay günlərindən biri idi. İş vaxtımız qurtaranda Teleşirkətdən çıxıb metronun "Bakı Soveti" (indiki "İçərişəhər") stansiyasına piyada gedirdim. Məndən qabaqda Fikrət Sadıq, Qabil və Balasadıq sanki söhbətin ahəngini pozmamaq üçün asta danışdıqları kimi asta da gedirdilər. Onlara salam verib ötmək istəyirdim ki, Qabil "Daha bir xahiş eləmək istəyirəm!"- deyə məni saxladı (Həmin gün onun səsini lentə almışdım). Xahiş elədi ki, verilişin vaxtı dəyişsə, ona zəng edim. Sonra bir yerdə getməli olduq.

O vaxtlar "aşağı düşən" (teleşirkət əməkdaşları metroya gedən yolu belə adlandırırdılar) asfaltla yanaşı, ağacların arasıyla, yaşıllıqlarla da yol vardı. Yaşlı adamların hamısı həmin yoldan istifadə edirdilər. Fikrət müəllim birdən ayaq saxlayıb dedi: "Dəryazın səsi gəlmir, amma biçilmiş otun qoxusu adamı bihuş edir".

Tut ağacının kölgəsində oturub su içən bağban: "Mən burdayam, ağsaqqal, dəryazın səsini də eşidə bilərsən"– dedi və ayağa qalxdı. Fikrət Sadığın siması şirin bir yuxuya getmiş körpənin çöhrəsinə çevrilmişdi. Sanki əsrarəngiz bir musiqiyə qulaq asırdı. Balasadığın "Sən bu yaş otun qoxusunda nə görmüsən, ay Fikrət?" – sualı cavabsız qaldı. Fikrət müəllim "Sən mənə gəncliyimi xatırlatdın, a bağban" – deyə adını bilmədiyimiz adama təşəkkür etdi. Mən isə bağbandan xahiş edib dəryazı əlimə götürdüm. Bəlkə birinci dəfə idi ki, şairlər şeir oxuyan həmkarlarını yox, ot biçən jurnalisti alqışlayırdılar.

## 30 ildə 60 ilin işini görməyi ancaq Müşfiq bacarardı

Deyəsən, 1995-ci il idi. Mikayıl Müşfiqin vəfatının ildönümü münasibətilə Xızıda keçiriləcək tədbirə gedirdik. Mən Qabillə Fikrət Sadığın da oturduğu maşında getməli oldum. Fikrət müəllim yol boyu narahatlıq ifadə edirdi ki, bu yağışlı yanvar havası mənim onsuz da ağrıyan ayağımı pis günə qoydu.

Müşfiqin abidəsi önündə keçirilən tədbirdə Fikrət Sadığın dediyi "Otuz ildə altmış ilin işini görməyi ancaq Müşfiq bacarardı" – deyimini hamı alqışlamışdı. Tədbir qurtaranda tanımadığım bir adam soruşdu ki, Fikrət müəllim, ayağınız necədir? Dedi, Müşfiq sağaltdı. Yenə gülüşdülər.

Sonra təşkilatçılar Bakıdan gəlmiş qonaqları çay süfrəsinə dəvət edəndə üzrxahlıq elədilər ki, çöl şəraitində yeyib-içəcəyik. Onda Qabilin bir ifadəsini hamı alqışlamışdı: "Ördəyə göl şəraiti, şairə çöl şəraiti".



## Musiqi təhsilini hansı məktəbdə almısan, Mirzəbəyli?

1998-ci il idi. Yazıçılar Birliyinə üzv olmaq üçün hazırladığım sənədləri Fikrət Sadığa təqdim etdim. Dedi, getmə, beş-on dəqiqəyə bu kitabçana baxım. Oqtay Rzanın "sısqa kitab" adlandırdığı, oğlum Natiqin dörd yaşı olanda verdiyi bir sualdan yaranmış şeirlə başlanan "Ata, hara gedirsən?" adlı kitabdan beş-altı şeir oxudu və sonra davam etdi. Orada cəmi altmış şeir var idi. Bəlkə də yarısını oxudu və məndən soruşdu: – Musiqi təhsilini hansı məktəbdə almısan, Mirzəbəyli?

Dedim, mənim heç bir musiqi təhsilim yoxdur. İnanmaq istəmədi və əlavə etdi ki, şeirlərinin əksəriyyətindən musiqi eşidilir.

Mən Fikrət Sadığın həmin qiymətləndirməsini bəlkə də ondan çox yazıda yada salmışam. Bəstəkar Tofiq Bakıxanov isə həmin kitabçadakı şeirlərdən beşinə mahnı bəstələyib.

## 3 cür olur zurnaçalan...

"Xalq qəzeti" baş redaktorunun birinci müavini Məmməd Nazimoğlu (Allah ona rəhmət eləsin!) müxtəlif yazılarında Fikrət Sadığın ifadələrindən istifadə edirdi. O, kənd rayonlarımızdan birinin icra başçısı haqqında olan məqaləsinə Fikrət müəllimin "Üç cür olur zurnaçalan" adlı üç misralıq şeiriylə başlamışdı.

Bir dəfə Axundov kitabxanasının yanında Fikrət müəllimlə Məmməd Nazimoğlunun söhbət etdiyini gördüm. Axşamüstü işdə Məmməd müəllimdən soruşdum ki, şair sizin yazılardan narazılıq edir? Dedi, yox, yeni ideyalar verirdi.

Altı il yarımdır ki, sıramızda olmayan Fikrət Sadıq bu gün də yeni yazılarımıza "ideya verir". Allah rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***


## "Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının nəzərinə!

"Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 6 iyul 2023-cü il saat 16.00-da Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin maliyyə-təftiş komissiyasının hesabatı.

**2.** Cəmiyyətin idarə heyətinin hesabatı.

**3.** 2021-2022-ci maliyyə illəri üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və illik hesabatın təsdiq olunması.

**4.** Cəmiyyətin idarə heyəti sədrinin və üzvlərinin seçilməsi.

**5.** ASC-nin hüquqi ünvanının dəyişdirilməsi.

**6.** Dividendlərin bölüşdürülməsi.

Ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək, Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda ASC-nin rəhbərliyinə müraciət etməklə tanış olmaq mümkündür.

Bildirilir ki, ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2 (iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında özü, yaxud notarius tərəfindən təsdiq olunmuş etibarnamə əsasında səlahiyyətli nümayəndə iştirak edə bilər.

***İdarə heyəti***

## "Puta-Nəqliyyat-2" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2023-cü il saat 14.00-da "Puta-Nəqliyyat-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ünvan- Bakı şəhəri, Qaradağ rayonu, Puta qəsəbəsi, Qobu-Güzdək-Puta yolunun 3-4-cü kilometrliyi 3, inzibati bina.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyətinin hesabatı və illik hesabatların təsdiqi.

**2.** Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***İdarə heyəti***

## "Səyyarmextikinti" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da "Səyyarmextikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2022-ci il üçün illik fəaliyyətinin yekunları haqqında hesabat.

**2.** Cəmiyyətin müşahidə şurasının yeni tərkibinin seçilməsi.

**3.** Digər məsələlər.

Əlaqə telefonu– (050) 545-92-41.

***İdarə heyəti***

## "Gəncə Yol Tikini-2" ASC səhmdarlarının nəzərinə!

"Gəncə Yol Tikini-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 7 iyul 2023-cü il saat 16.00-da Gəncə şəhəri Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** 2021-2022-ci maliyyə illəri üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

Ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda ASC-nin rəhbərliyinə müraciət etməklə tanış olmaq mümkündür.

Bildirilir ki, ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2 (iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında özü, yaxud notarius tərəfindən təsdiq edilmiş etibarnamə əsasında səlahiyyətli nümayəndə iştirak edə bilər.

***İdarə heyəti***

## "Dəmir-Beton7" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2023-cü il saat 11.00-da "Dəmir-Beton7" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2022-ci il üçün fəaliyyətinin yekunları haqqında hesabat.

Əlaqə telefonu– (050)-545-92-41.

***İdarə heyəti***

## BİLDİRİŞ

"Xalq qəzeti"nin 12 may 2023-cü il tarixli nömrəsində dərc edilmiş "Loğman" ASC səhmdarlarının yığıncağının keçiriləcəyi tarix 15 iyun 2023-cü il saat 11.00 deyil, 30 iyun 2023-cü il saat 11.00 kimi oxunmalıdır.

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 100 (30216) 14 may 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az

## Süni intellekt daha nə vəd edir?

**Bu il mayın 18-21-də Çində keçiriləcək 7-ci Ümumdünya Süni İntellekt Konqresinin əsas mövzusu "Süni intellekt: hərtərəfli inkişaf sahəsi, dayanıqlı inkişafın hərəkətverici qüvvəsi" olacaq.**



Tədbir ağıllı texnologiyalarla iqtisadi və sosial inkişafın gücləndirilməsinə yönəldilsə də, smart texnologiya sahəsində dəyişiklik, əməkdaşlıq, nəticələr və süni intellekt texnologiyalarını paylaşmaq üçün qlobal platforma olacaq.

Tədbir zamanı "ağıllı avtomobillər", məhsuldar süni intellekt, beyin-kompüter qarşılıqlı əlaqəsi kimi perspektivli mövzular, o cümlədən iqtisadiyyat, cəmiyyət və mədəniyyət sahələrində süni intellektlə bağlı qaynar gündəmlər müzakirə olunacaq.

Sərgidə ABŞ, Almaniya, Yaponiya və Cənubi Koreya da daxil olmaqla, 21 ölkədən və regiondan ekspertlər, akademiklər, sahibkarlar iştirak edəcəklər.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

*İdman xəbərləri*

## Avropa Multi Oyunlarından 6 medal

**Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda gənc və yeniyetmə taekvondoçular arasında Multi Avropa Oyunları başa çatıb. Yarışın son günündə dayanq üzərinə çıxan yeniyetmə atletlər 2 qızıl və 1 gümüş medal qazanıblar.**

İdmançılarımızdan İlyas Hətəmli (160 sm) və Şəms Əlizadə (160 sm) əzmlə mübarizə apararaq fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Yalnız finalda məğlub olan Novruz Əliyev isə gümüş medala sahib olub.

Ümumi hesabda yığmamız oğlanlar arasında ikinci, qızların mübarizəsində üçüncü yeri tutub.

Beləliklə, milli komandamız Multi Avropa Oyunlarını 6 medalla başa vurub. Qeyd edək ki, bundan əvvəl gənclər arasında Məhəmməd Həsənli (48 kq) gümüş, Hüseyn Xudiyev (78 kq) və Ruslan Həsənzadə (+78 kq) bürünc medal alıblar.




## Fransız komediyası "M Teatr"ın səhnəsində

*Premyera*



**"M Teatr"ın səhnəsində fransız dramaturqu, aktrisa Yasmina Rezanın "Art" adlı əsəri əsasında hazırlanan eyniadlı tamaşanın premyerası keçirildi.**

Həyat, sənət və dostluq mövzularını özündə ehtiva edən bu komediya 3 dost – Serj, Mark və İvanın ağ kətan üzərində xəyali rəsm üstündə etdikləri mübahisədən bəhs edir. Serj modern sənətə meyil edərək böyük ölçüdə, bahalı və üzərində heç bir cizgi olmayan ağ bir rəsm alır. Bunu görən Mark dostunun hərəkətindən dəhşətə gəlir və onlar mübahisə etməyə başlayırlar.

Mübahisə getdikcə dərinləşir və davaya çevrilir. Onların bu yersiz hərəkətlərinə tab gətirməyən İvan dostlarını razı salmaq üçün araya girir və onları sakitləşdirməyə çalışır. Rəsm haqqında müsbət fikirlər söyləyən İvan, eyni zamanda, əsəri tənqid etməyə başlayır. Onun ziddiyyətli fikirləri dostlarını əsəbiləşdirir. Onlar bu dəfə İvanı tənqid edirlər.

Nəhayət, özünü müdafiə etməyi bacaran İvan hönkür-hönkür ağlayır və dostlarına izah etməyə çalışır ki, dostluq onun üçün hər şeydən önəmlidir. Boş və mənasız söhbətlərə görə yaxın əlaqələri qırmağa dəyməz. Dostları İvanın pis vəziyyətdə olduğunu görüb sakitləşir və aralarında yaranan mübahisəyə son qoyaraq barışırlar.

Səhnə əsərinin quruluşçu rejissoru Ərturan Nəcəfi Göldür. Rolları aktyorlar Vüqar Hacıyev, Şamil İbrahimov və Ərturan Nəcəfi Göl ifa edirlər.

Qeyd edək ki, əsərin ilk premyerası 1994-cü il oktyabrın 28-də Parisdəki Şenzelize teatrında baş tutub.

***Fidan HÜQUQQIZI, Elşən AĞALAROV (foto), "Xalq qəzeti"***

## Paralimpiyaçımız qızıl medal qazanıb

**Milli Paralimpiya Komitəsinin atletika üzrə milli komandasının üzvü, paralimpiya çempionu Lamiyə Vəliyeva İtaliyanın Cesolo şəhərində keçirilən Qran-Pri yarışında uğurla çıxış edib.**



Təmsilçimiz 100 metrə qaçışda 12.45 saniyə nəticə göstərərək birinci yeri tutub. L.Vəliyeva bu nəticə ilə cari ilin iyul ayında Fransanın paytaxtı Paris şəhərində keçiriləcək atletika üzrə dünya çempionatına lisenziya əldə edib.



## "Qarabağ" çempionluğunu rəsmiləşdirib

**Misli Premyer Liqasında XXXIV turu çərçivəsində daha iki oyun keçirilib.**

Dünən keçirilmiş günün ilk oyununda "Qəbələ" "Turan Tovuz"a 1:2 hesabı ilə məğlub olub.

Günün digər oyununda isə "Səbail"lə "Qarabağ" qarşılaşıb. Ağdam təmsilçisi rəqibini 3:0 hesabla məğlub edərək çempionluğunu rəsmiləşdirib.

Xatırladaq ki, turun "Zirə" ilə "Kəpəz" arasında baş tutan ilk matçında qalib müəyyənləşməyib – 1:1. "Neftçi" – "Şamaxı" matçı bu gün, "Sumqayıt" – "Sabah" oyunu isə mayın 17-də keçiriləcək.

## Xeyriyyə oyunu 3:3 hesabı ilə başa çatdı



**Bakının "Sabah" və Türkiyənin "Beşiktaş" futbol klubları arasında xeyriyyə oyunu keçirilib.**

Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən matçda 3:3 hesabı qeydə alındı.

Qeyd edək ki, matçdan əldə olunan 1 milyon 90 min 455 manat Türkiyədə zəlzələdən zərər görmüş insanlara yardım üçün göndəriləcək.

## Cüdoçularımız dünya çempionatını 1 medalla başa vurublar

**Qətərin paytaxtı Dohada Azərbaycan cüdoçularının da iştirak etdiyi dünya çempionatı başa çatıb. Mundialda 13 (9 kişi, 4 qadın) cüdoçu ilə iştirak edən millimiz yarışı 1 medalla başa vurub.**




Komandamızın aktivinə bürünc medalı çempionatda 100 kiloqramdan yuxarı çəki dərəcəsində yarışan Zelim Kotsoyev qazandırıb.

Dünya çempionatında 99 ölkədən 600-dən çox idmançı mübarizə aparıb.

***L.QURBANOVA, "Xalq qəzeti"***

*Texnologiya xəbərləri*

## "Twitter"dən yenilik

**"Twitter" sosial media platforması şifrəli mesajlaşma xidmətini işə salır.**



Burada göndərilən birbaşa mesajlar başdan-başa şifrələnəcək. Şəxsi mesajlar yalnız göndərən və alıcı tərəfindən oxuna bilər.

Bunu, "Twitter"in baş icraçı direktoru İlon Mask deyib. Lakin o bildirib ki, bu, ilkin versiyadır və hələ sınaq mərhələsindədir.

Qeyd edək ki, bu funksiya hər kəs üçün əlçatan olmayacaq. Bu yenilikdən yalnız "Twitter Blue" (mavi işarə) üçün ödəniş edən və rəsmi profili olan şəxslər istifadə edə biləcəklər.

***F.SALMANOVA, "Xalq qəzeti"***

## 13-cü taborun 13 şəhidi

**Azərbaycan Yazıçılar Birliyində (AYB) birliyin üzvü, Prezident təqaüdçüsü Elnur Uğurun 44 günlük Zəfər savaşında əfsanəvi şücaət göstərən 13-cü əfsanəvi taborun 13 şəhidinin döyüş yolundan bəhs edən "13 Əfsanə" kitabının təqdimatı keçirilib.**




Təqdimatı AYB-nin katibi, Əməkdar mədəniyyət işçisi, yazıçı Elçin Hüseynbəyli açıb. Tədbirin aparıcılığını tənqidçi Əsəd Cahangirə həvalə edib. Tədbirdə tanınmış tənqidçilərdən Vaqif Yusifli, Esmira Fuad, Yeganə Qəhrəmanova, Gürcüstan Milli Elmlər Akademiyasının akademiki, "Kür–Xəzər xeyriyyə cəmiyyəti"nin prezidenti Akif Kərimov, AzTV-nin departament rəhbəri Elnar Məmmədli, həkim-şair Nazilə Gültac, şairə Adilə Nəzər, "Ədəbi ovqat" dərgisinin təsisçisi Rafael Tağızadə, dilçi-alim Aynur Bəşirova, ASKEF-nin Azərbaycan təmsilçisi Sona İsmayılova, din xadimi Mirseymur Əliyev, qazi Ayar Abbasov, "13 əfsanə"nin valideynləri və doğmaları çıxış ediblər.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

*Proqnoz*

## ...Arabir yağış yağacaq

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gündüz yağışda fasilə olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 8-12°, gündüz 13-16° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 65-75 faiz olacaq.

Azərbaycanın rayonlarında sabah bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 9-14° isti, gündüz 15-19° isti, dağlarda gecə 0-3° isti, gündüz 3-5° isti olacaq.



***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***




## "Claude" çatbotu "ChatGPT"ni geridə qoydu?

**"OpenAI" şirkəti tərəfindən irəli sürülən "ChatGPT"nin uğurlarından sonra söhbət çatbotlarının sayı artmağa başlayıb. "ChatGPT"nin rəqiblərindən biri olan "Claude" mühüm iddia ilə diqqəti cəlb edir. Belə ki, əhəmiyyətli yaddaş yenilənməsi alan süni intellekt 75 minə qədər sözü emal edə bilir. Xəbəri "cnet.com" saytı verib.**

Şirkət "Claude"nin yeni yaddaş sistemini sınaqdan keçirib. "Great Gatsby" kitabında bir cümlə dəyişdirilib və çatbot romanı iki dəfə oxuyub. Süni intellektin fərqi dərk etməsi cəmi 22 saniyə çəkib. Beləliklə, söhbət çatbotu "Claude" 75 minə qədər sözü yadda saxlamaqla indiyə qədər ən çox söz emal edən söhbət çatbotu ünvanını alıb. "ChatGPT" isə hazırda bir söhbətdə təxminən 3 min söz emal edir.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5182
SİFARİŞ 1079
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00